

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№18 (608) ■ 16 may 2012 www.vergiler.az Qiymət: 40 qəp.

# Bakıda Heydər Əliyev Mərkəzi istifadəyə verilmişdir

## *Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak etmişlər*



Mayın 10-da Bakıda Heydər Əliyev Mərkəzi açılmış, ulu öndərin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə təntənəli mərasim keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak etmişlər.

Dünya arxitekturasının nadir incilərindən olan Heydər Əliyev Mərkəzinin quruluşunda Bakının memarlıq koloriti dəqiqliklə nəzərə alınmışdır. Dünyada bənzəri olmayan Mərkəzin yaradılması ideyasının arxitekturada mükəmməl formada əks olunması onun quruluşuna xüsusi özəllik verir. Ümummilli liderin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində Vətəninin və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının, onların arzu və istəklərini gerçəkləşdirmək əzminin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edən Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir reallıqlarını əks etdirir.

Prezident İlham Əliyev mərasimdə nitq söyləmişdir. Dövlət başçısı qeyd etmişdir ki, Heydər Əliyev Mərkəzi nadir memarlıq abidəsi, dünyada analoqu olmayan, müasirliyi özündə təcəssüm etdirən çoxfunksiyalı bir binadır. lBinanın xarici görünüşü müxtəlif fərziyyələr irəli sürməyə imkan verir. Bəziləri bu mərkəzi dalğaya, bəziləri küləyə bənzədirlər. Bu, təbiidir, hər bir insanın öz fantaziyaları əsasında fikirləri yarana bilər. Hər halda, bu bina həm memarlıq baxımından, həm də funksional baxımdan nadir binadır», - deyən Prezident İlham Əliyev bildirmişdir ki, Mərkəzdə iclas və konsert, rəsmi qəbullar və konfrans zalları vardır.

Heydər Əliyev Mərkəzini memarlıq möcüzəsi adlandıran dövlət başçısı ulu öndərin xalqımız qarşısında əvəzolunmaz xidmətlərindən danışmış, ümummilli liderin bütün dövrlərdə öz xalqına sədaqətlə xidmət etdiyini diqqətə çatdırmışdır: «Onun xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. O, bütün dövrlərdə Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına və Azərbaycanın inkişafına böyük səy göstərmişdir».

Hazırda Azərbaycanın yüksək inkişaf etmiş dövlətlər sırasına daxil olduğunu qeyd edən Prezident İlham Əliyev respublikamızda siyasi və iqtisadi islahatların davam etdiyini, demokratikləşmə prosesinin uğurla getdiyini bildirmişdir. Qeyd olunmuşdur ki, son doqquz il ərzində Azərbaycan iqtisadi sahədə misli görünməmiş inkişaf dövrünü yaşayır. Doqquz ildə iqtisadiyyat üç dəfə artmışdır. Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla davam etdirilir.

Sonra Heydər Əliyev Mərkəzindən bəhs edən film nümayiş olunmuşdur. Filmin nümayişindən sonra Heydər Əliyev Fondunun fəaliyyətinin 8 illiyinə həsr olunmuş mərasim keçirilmişdir. Mərasimdə Fondun Prezidenti Mehriban xanım Əliyeva çıxış etmişdir.

# Azərbaycan Prezidenti şimal-qərb bölgəsinə səfər etmişdir

## *Dövlət başçısı baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən tədbirlərlə yerində tanış olmaq üçün təbii fəlakət bölgəsində olmuşdur*

Məlum olduğu kimi, mayın 7-də Azərbaycanın şimal-qərb bölgəsində zəlzələ olmuşdur. Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zəlzələdən zərər çəkmiş bölgənin sakinləri ilə görüşmək və təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən tədbirlərlə yerində tanış olmaq üçün təyyarə ilə Zaqatala rayonuna gəlmişdir.

Dövlətimizin başçısı helikopterlə zəlzələnin episentrindəki ərazini seyr etmişdir. Fövqəladə hallar naziri Kəmaləddin Heydərov Prezident İlham Əliyevə təbii fəlakətin nəticələri barədə ətraflı məlumat vermişdir. Qeyd edilmişdir ki, mayın 7-də axşam saat 19.15-də zəlzələnin episentrində 12 ballıq cədvəl üzrə 7 bal gücündə baş verən təkrar yeraltı təkan daha ciddi dağıntılar törətmişdir. Ümumiyyətlə, ötən müddətdə 500-dək yeraltı təkan qeydə alınmışdır və onlardan bir neçəsi daha çox hiss olunmuşdur.

Bildirilmişdir ki, zəlzələ nəticəsində Zaqatala, Qax və Balakən rayonlarında üç minədək ev ya uçmuş, ya da qəzalı vəziyyətə düşmüşdür. Çoxlu sayda sosial obyektə də ciddi ziyan dəymişdir. Zəlzələnin episentrində yerləşən Zaqatala rayonunun Gözparaq, Mamrux, Zəyəm, Muxax, Bazar, Qımır və Çobankol, eləcə də Qax rayonunun Güllük, Zərnə, Lələpaşa kəndlərində ciddi dağıntılar baş vermişdir. Diqqətə çatdırılmışdır ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı operativ qayğadada qərargah yaradılmış və işçi qruplar dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq tədbirlər görür. Qısa müddətdə rayona Fövqəladə Hallar Nazirliyi tərəfindən çoxlu sayda texnika və avadanlıq, çadırlar, böyük miqdarda tikinti materialları gətirilmişdir.

«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin xətti ilə də Zaqatala rayonuna tikinti materialları ilə kömək göstərilmişdir. Zəlzələ bölgəsinə çoxlu sayda çadırlar gətirilərək quraşdırılmışdır.

Zaqatala, Qax və Balakən rayonlarına əlavə texnika, inşaat materialları, avadanlıq və digər zəruri materialların gətirilməsi davam edir. Zəlzələdən ziyan çəkən əhaliyə dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq hər cür köməklik göstərilir.

## Yeni salınan parklar paytaxtımızı daha da gözəlləşdirir



Mayın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev prospektinin Suraxanı rayonu ərazisindən keçən hissəsində yeni salınmış parkın açılışında iştirak etmişdir. Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Prezidentinə məlumat vermişdir ki, parkın salınmasına 2011-ci ilin sonunda başlanılmışdır. Bu, Suraxanı rayonu ərazisində sayca beşinci parkdır. Bülbülə qəsəbəsinin sakinləri bu parkda mənalı istirahət edə biləcəklər. Parkın ümumi sahəsi 17 min 538 kvadratmetrdir. Burada geniş abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilmiş, yaşıllıq sahələri salınmışdır. Yerli şəraitə uyğun 500-dən artıq müxtəlif ağac və gül kolları əkilmişdir. Parkda uşaqlar üçün 568 kvadratmetrlik əyləncə meydançası yaradılmış, müxtəlif attraksionlar quraşdırılmışdır. Yeni park Bakının simasını daha da gözəlləşdirməklə bərabər, əhalinin istirahəti üçün sevimli məkanlardan biri olacaqdır.

**rəsmi xronika**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmək üçün mayın 15-də Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola salmışlar.

MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmək Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə gələn Azərbaycan Prezidenti İlham Əliyevi birliyin üzvü olan ölkələrin dövlət bayraqlarının dalğalandığı Vnukovo-2 Beynəlxalq Aeroportunda Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılamışlar.

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edilmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə edilmişdir.

## Prezident İlham Əliyev Beynəlxalq Velosipedçilər İttifaqının prezidentini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti Patrik Mak Quaydı qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velosiped turunun keçirilməsinin əhəmiyyətini qeyd etmiş, bu beynəlxalq tədbirin təkcə paytaxtı deyil, regionları da əhatə etməsinin önəmini vurğulamışdır.

Beynəlxalq Velosipedçilər İttifaqının Prezidenti Patrik Mak Quayd müasir dövrdə velosipedsürmə idman növünə dünyanın müxtəlif ölkələrində marağın getdikcə artdığını qeyd etmişdir. O, Azərbaycanda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velosiped turunun keçirilməsinin böyük əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır.

## Bolqarıstan Xalq Məclisinin sədri Azərbaycan Prezidentinin qəbulunda olmuşdur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Bolqarıstan Respublikası Xalq Məclisinin sədri xanım Tsetska Tsaçevanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin zəngin tarixə malik olduğunu qeyd etmiş, yüksək səviyyədə təmasların səmərəli nəticələr verdiyini vurğulamışdır. Prezident İlham Əliyev Bolqarıstan Respublikası Xalq Məclisi sədrinin səfərinin, həmçinin Baş nazir Boyko Borisovun bu yaxınlarda ölkəmizə gəlişini xatırlayaraq, həmin səfərlərin əlaqələrimizin dinamik inkişafının nümunəsi kimi dəyərləndirmişdir. Dövlət başçısı ölkələrimiz arasında enerji, turizm və digər sahələrdə mövcud olan bir sıra birgə layihələrin önəmini qeyd etmişdir.

Bolqarıstan Xalq Məclisinin sədri xanım Tsetska Tsaçeva Azərbaycan ilə Bolqarıstan arasında diplomatik əlaqələrin qurulmasının 20-ci ildönümü ərəfəsində Bolqarıstan parlamenti nümayəndə heyətinin Azərbaycana səfərinin önəmini vurğulayaraq ali qanunverici orqanlar arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

2 Ən uca zirvəyə aparan yol

3 Azərbaycan biznes üçün əlverişli məkana çevrilib

4 Plastik kart biznesinin inkişaf istiqamətləri

5 Nağdsız ödənişlərin genişlənməsində bankların fəallığı yüksəlir

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir

Vergilər Nazirliyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə mərasim keçirilmişdir.

Əvvəlcə tədbir iştirakçıları Vergilər Nazirliyinin foyesində ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoymuşlar. Ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra onun həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilmişdir.

Vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov mərasimdə çıxış edərək ümummilli liderin Azərbaycan xalqı qarşısında tarixi xidmətləri barədə danışmışdır. Qeyd olunmuşdur ki, müstəqil Azərbaycan dövlətinin yaşaması, qüdrətli bir ölkə kimi təşəkkül tapması və davamlı inkişafı dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun gərgin əməyi və uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz bütövlüyünü, dövlət müstəqilliyini qoruyub saxlamış, xalqımız vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur.






Bildirilmişdir ki, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı yenidən qurulmuş, makroiqtisadi sabitlik və iqtisadiyyatın tarazlı inkişafı təmin olunmuş, dahi öndərin rəhbərliyi və birbaşa nəzarəti ilə reallaşan iqtisadi islahatlar ölkəmizin regionda və dünyada aparıcı dövlətlər səviyyəsinə yüksəlməsi üçün zəmin yaratmışdır. Vergilər naziri Fazil Məmmədov Azərbaycanın müasir vergi xidmətinin yaradılmasının da ümummilli liderin adı ilə bağlı olduğunu qeyd etmiş, məhz onun təşəbbüsü sayəsində vergi sisteminin müasir standartlar əsasında formalaşdırılmasına start verildiyini, mühüm sənəd olan Vergi Məcəlləsinin qəbul olunduğunu vurğulamışdır.

Qeyd olunmuşdur ki, bu gün möhtərəm Prezident İlham Əliyev ulu öndərin siyasətini uğurla davam etdirir, onun müəyyənləşdirdiyi dövlətçilik konsepsiyasına uyğun olaraq suverenliyimizin daha da möhkəmlənməsi və ölkəmizin hərtərəfli tərəqqisi yolunda var qüvvəsi ilə çalışır.

Tədbirin sonunda Fazil Məmmədov vergi sistemində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2012-ci il tarixli sərəncamı ilə təltif olunmuş əməkdaşlara «Vergi orqanlarında xidmətdə fərqlənməyə görə» və «Dövlət qulluğunda fərqlənməyə görə» medallarını və Vergilər Nazirliyinin Fəxri fərmanlarını təqdim etmişdir.

# POS-terminalla ödə...

Ölkədə nağdsız hesablaşmalara diqqətin artırılması istiqamətində işlər davam etdirilir. Plastik kartlardan istifadənin genişləndirilməsi məqsədilə POS-terminalların sayı da artırılıb. Ölkədə fəaliyyət göstərən ticarət, iaşə obyektlərində, apteklərdə, taksilərdə, yanacaqdoldurma məntəqələrində və digər sahələrdə 25 mindən çox POS-terminalın quraşdırılması təmin edilib və bu iş uğurla davam etdirilir. Ölkə başçısının da diqqət mərkəzində olan bu sahənin inkişaf etdirilməsi üçün bir sıra maarifləndirici tədbirlər həyata keçirilir. Vergilər Nazirliyi tərəfindən nağdsız ödənişlərin stimullaşdırılması və POS-terminallardan istifadə qaydalara ilə bağlı əhalinin məlumatlandırılması və maarifləndirilməsinə dair Tədbirlər Planı təsdiq edilmişdir. Nazirliyin paytaxtda yerləşən bütün strukturlarının əməkdaşlarına POS-terminallardan istifadə qaydaları barədə təlimlər keçirilmiş, eyni zamanda həmin əməkdaşlar tərəfindən təsərrüfat subyektlərində vergi ödəyicilərinin maarifləndirilməsi tədbirləri həyata keçirilmişdir. Həmçinin, nağdsız ödənişlərin üstünlükləri barədə bukletlər hazırlanaraq vergi ödəyicilərinə çatdırılmışdır.

Bu istiqamətdə atılan mühüm addımlardan biri kimi nazirliyin rəsmi internet səhifəsində «POS-terminalla ödəniş, ödənişin qaytarılması, «Z» hesabatının çıxarılması barədə video təlimat»ın yerləşdirilməsini qeyd etmək olar. Təlimata diqqət yetirməklə POS-terminal vasitəsilə ödənişin necə həyata keçirilməsini, ödəniş zamanı səhvin aradan qaldırılmasını, məbləğin karta necə qaytarılmasını öyrənmək mümkündür. Belə ki, plastik kartlarla ödəniş kartların xüsusiyyətindən asılı olaraq iki üsulla həyata keçirilir. Plastik kartda yalnız başdan-başa gedən maqnit zolağı olduqda kart POS-terminalın yan tərəfində olan yarıqdan keçirilir. Kartın üzərində çip olduqda isə POS-terminalın aşağı hissəsində olan kəsik yerə yerləşdirilir. Üzərində çip olan kartdan istifadə zamanı onun POS-terminala düzgün yerləşdirilməsinə diqqət edilməlidir. Kartın çip olan tərəfi üzü yuxarı və POS-terminala yaxın olmalıdır. Təlimatda qeyd edilir ki, POS-terminalların modelləri müxtəlif olsa da, həmin aparatlar vasitəsilə aparılan əməliyyatların əsas prinsipləri eynidir. Vergi ödəyiciləri təlimata diqqət yetirməklə ödəniş məbləğini necə geri qaytarmağı da öyrənmiş olarlar. Təlimatda da qeyd edildiyi kimi, ödəniş məbləğinin hissə-hissə deyil, tam şəkildə qaytarılması mümkündür.

«Z» hesabatının çıxarılması da POS-terminallardan istifadə zamanı əsas əməliyyatlardan biridir. Bunun üçün «menyu» pəncərəsində 4 düyməsi basıldıqdan sonra parolu daxiletmə pəncərəsi açılır. Orada 6 ədəd 1 rəqəmindən ibarət olan parol daxil edilir və «Z» hesabatının çıxarılması əməliyyatı yerinə yetirilir. Ümumi əməliyyatdan sonra qəbzin çap olunması üçün yaşıl rəngli düymə, əks halda isə qırmız rəngli düymədən istifadə olunur. «Z» əməliyyatı çıxarılmadıqda ödənilən məbləğ müştərinin hesabından silindiyi halda, satıcının hesabına oturmur və müəyyən vaxtdan sonra yenidən müştərinin hesabına qayıdır.

***Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmiş «POS-terminalla ödəniş, ödənişin qaytarılması, «Z» hesabatının çıxarılması barədə video təlimat» maraqla izlənilir***




**AYTƏN**

# Ən uca zirvəyə aparan yol

***1998-ci il mayın 10-da Azərbaycan alpinistləri Qafqaz sıra dağlarının şimal hissəsində, dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən zirvəni fəth etmiş və onu ulu öndər Heydər Əliyevin anadan olmasının 75 illiyi münasibətilə «Heydər zirvəsi» adlandırmışlar.***

Gənclər və İdman Nazirliyi və respublika Alpinist-Turist Klubunun təşkilatçılığı ilə bir sıra dövlət qurumlarının, eləcə də Vergilər Nazirliyinin əməkdaşlarından ibarət qrup ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü ilə əlaqədar - mayın 7-də Fəxri xiyabanda ulu öndərin xatirəsini yad etmiş, məzarı önünə gül dəstələri qoymuşlar. Daha sonra yürüş iştirakçıları Şəhidlər xiyabanına gəlmiş, ölkəmizin müstəqilliyi uğrunda canlarından keçən Vətən övladlarının xatirəsini yad etmiş və oradan «Heydər zirvəsi»nə yola düşmüşlər. Onlar mayın 10-da «Heydər zirvəsi»nə qalxmış, ulu öndərimizin orada qoyulmuş büstünü ziyarət etmişlər.



Bu il yürüşdə Vergilər Nazirliyini Pərviz Həsənov, Sevər Musayeva, Rəşad Seyidli və Azər Məmmədzadə təmsil etmişlər. Onlar ulu öndərin adını daşıyan zirvəyə çıxmaq şərəfinə nail olduqlarından böyük qürur hissi keçirdiklərini bildirmişlər.

# «Standard & Poor's» Avropanı gözləyən yeni böhran barədə xəbərdarlıq etdi

## *Agentlik AB ölkələrinin reytinqini yenidən aşağı salacağını bildirib*

«Standard & Poor's» Beynəlxalq Reytinq Agentliyi Avropa Birliyi ölkələrinin maliyyə-kredit bazarı ilə bağlı pessimist proqnozlarla çıxış edib. Təşkilat son dövrlər Avropanın inkişaf etmiş ölkələrində maliyyə və borc böhranı fonunda iqtisadiyyatda geriləmə meyillərinin davam etməsini, bankların və kredit təşkilatlarının maliyyə bazaranın tələblərinə uyğun öhdəlikləri tam yerinə yetirə bilmədiyini diqqətə çatdırır. Agentliyin açıqlamasında qeyd olunur ki, Avropa ölkələrində sonuncu maliyyə böhranı nəticəsində yaranmış problemlərin aradan qaldırılması üçün mərkəzi maliyyə institutlarının və bank orqanlarının sərəncamında olan fiskal və monetar alətlər artıq tükənməkdədir. Son 2 ildə bank və kredit təşkilatları iqtisadiyyatın maliyyəyə olan ehtiyaclarını ödəmək üçün kifayət qədər öz daxili ehtiyatlarından istifadə edib, hazırda ehtiyatların tükənməsi müşahidə olunur.

«Standard & Poor's»un analitikləri qeyd edirlər ki, Avropa Birliyi ölkələrinin hökumətləri və maliyyə strukturlarına nəzarət edən qurumlar bank-kredit təşkilatlarına öz dəstəyini göstərməsə, onların mövcud ehtiyatlarının potensial tükənməsi baş verə bilər və bu faktorun iqtisadiyyatın maliyyə təminatında ciddi fəsadlara yol açacağı qaçılmaz olar. Bir sıra ölkələrin öz daxili borc öhdəlikləri ilə yanaşı, xarici borc öhdəlikləri də artmış olacaq ki, bu da vəziyyətin həddindən artıq pis nəticələnəcəyini proqnozlaşdırmağa əsas verir. Xarici borcun məbləğinin yüksək olması istənilən ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir. Digər tərəfdən, hər hansı ölkənin milli təhlükəsizliyinin xüsusi bir şkalaya yaxınlaşması, qorxulu bir tendensiyaya gəlib çatması onun xarici ticarət dövriyyəsinin həcmi ilə mütənasibliyində özünü göstərir. Həmin ölkənin ixrac qabiliyyəti ilə xarici ticarət dövriyyəsinin balansı onun xarici borcunun məbləği ilə qeyri-mütənasib olduqda iqtisadi təhlükəsizliklə bağlı mənfi sindromlar özünü göstərməyə başlayır.

Agentlik artıq Yunanıstanın dərin böhranın cəngində sıxıldığını, Portuqaliya, İspaniya, İtaliya, Fransa kimi iqtisadi güclərin resessiyalar qarşısında immunitetinin azaldığını Avropada yeni böhranın siqnalları hesab edir.

Sənəddə yeni borc böhranının qarşısını almaq üçün Avropanın investisiya banklarının və iri sərmayəçilərinin, xüsusilə də Avropa Stabilləşmə Fondunun bir araya gəlməsinin vacibliyi diqqətə çatdırılır. Mütəxəssislərin fikrincə, mərkəzi maliyyə-bank institutları maliyyə çatışmazlığını aradan qaldırmaq üçün iri şirkətlər və güclü maliyyə portfelinə malik investorlarla yeni strategiya hazırlamaq barədə düşünməlidir. Əks halda, bu tendensiya regionda iqtisadi artımın daha da azalmasına, rəqabətqabiliyyətliliyin tamamilə aşağı düşməsinə, borc böhranının daha da dərinləşməsinə və şirkətlər arasında borc probleminin kəskinləşməsinə səbəb ola bilər. Bu isə Avropada daha genişmiqyaslı maliyyə-kredit böhranının yaranmasına gətirib çıxara bilər.

«Standard & Poors» Avropa Birliyi ölkələrini xəbərdar edərək yeni böhrana qarşı təsirli tədbirlər görülməyəcəyi halda, iqtisadiyyatda baş verəcək resessiyaların fonunda beynəlxalq reytinqlərinin də aşağı salınacağını istisna etməyib. İnkişaf etmiş ölkələrin kredit reytinqlərinin aşağı düşməsi isə iqtisadiyyatın real sektoruna təsir edərək yoxsulluğun və işsizliyin səviyyəsinin artmasına gətirib çıxaran amildir. Qeyd edək ki, «Standard & Poors» ötən həftə bir neçə ölkənin investisiya reytinqinin aşağı salınması barədə qərar qəbul edib. Qurum avrozona ölkələrindən İtaliya, İspaniya, Slovaniya, İrlandiya, Belçika kimi inkişaf etmiş ölkələrlə yanaşı, Türkiyənin də reytinqini aşağı salıb. Agentliyin mövqeyinə görə, həmin dövlətlərin səhm bazarı, qiymətli kağızlar, istiqraz və digər maliyyə alətləri öz dəyərini itirməkdədir. Bunun nəticəsidir ki, Avropanın ən iri birja və fondlarında səhmlərin, digər qiymətli kağızların indeksləri düşməkdə davam edir və bu amillər investisiya və kredit reytinqlərinin azaldılmasında başlıca rol oynayır.

**Elbrus CƏFƏRLİ**

# «Fitch Ratings» Azərbaycanın investisiya səviyyəli kredit reytinqini təsdiqləmişdir

## *Həyata keçirilən iqtisadi siyasət nəticəsində Azərbaycan biznes üçün əlverişli məkana çevrilib*

*«Fitch» Beynəlxalq Reytinq Agentliyi 2012-ci il mayın 10-da Azərbaycanın uzunmüddətli yerli və xarici valyuta üzrə reytinqini «BBB-» investisiya səviyyəsində bir daha təsdiqləmişdir. Agentliyin mətbuat üçün yaydığı açıqlamada qeyd olunur ki, Azərbaycanın reytinqinin investisiya səviyyəsində saxlanması aparılan davamlı islahatlar nəticəsində ölkənin iqtisadi qüdrətinin əhəmiyyətli dərəcədə güclənməsini, dinamik sosial-iqtisadi inkişafı və insanların rifah halının yaxşılaşmasını əks etdirir.*

«Neftdən daxil olan gəlirlər və olduqca ehtiyatlı və düşünülmüş büdcə siyasəti ölkənin maliyyə gücünü əhəmiyyətli dərəcədə artırmış, nəzərə çarpan dərəcədə valyuta ehtiyatları yaratmağa imkan vermiş, inflyasiyanı idarəolunan səviyyədə saxlamışdır. Respublikada qeyri-neft sektorunda gedən sürətli inkişaf rəqabətədavamlı milli iqtisadiyyatın formalaşdırılmasına və inkişaf dinamikasının sürətləndirilməsinə, habelə yoxsulluğun əhəmiyyətli dərəcədə aşağı salınmasına, insan kapitalı ilə bağlı bir çox məsələlərin həll olunmasına zəmin yaratmışdır», - agentliyin məlumatında bildirilir. Agentlik Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatının tərkib hissəsinə çevrildiyini və ölkənin istənilən geosiyasi risklərə dayanıqlılığını da xüsusi vurğulayır.

2011-2012-ci illərdə Azərbaycanın sürətli inkişaf yolunda olduğu, respublikada biznes mühitinin əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə liberallaşdırıldığı bir sıra digər nüfuzlu maliyyə qurumları və reytinq agentliklərinin hesabatlarında da təsdiqini tapmışdır. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının 2011-ci ilin sonunda hazırladığı «Doing 2012: daha şəffaf dünyada biznesin idarə edilməsi» reytinqində Azərbaycan 3 pillə irəliləyərək 66-cı yeri tutmuşdu.

«Moody's Investors Services» Beynəlxalq Reytinq Agentliyi isə aprelin 19-da yaydığı məlumatda respublikamızın suveren kredit reytinqini «Ba1»dən «Baa3»ə qaldırmışdır. «Moody's» Beynəlxalq Reytinq Agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyuta üzrə reytinqini investisiya səviyyəsinə yüksəltmişdir. Agentliyə görə, Azərbaycan hökuməti «daha çox xarici investisiya cəlb etmək üçün» enerji daşıyıcılarının qiymətinin artmasından səmərəli istifadə edə bilmişdir: «Neftlə bağlı olmayan sənayenin infrastrukturunun təkmilləşdirilməsi və yeni sektorların inkişaf etdirilməsi 2011-ci ildə həmin sahələrin istehsal səviyyəsini 9,4% qaldırmağa imkan vermişdir».

«Moody's» həmin qərarı ilə 2011-ci ilin dekabrında Azərbaycanın statusunu bir pillə qaldıran («BBB»yə qədər) nüfuzlu «Standard & Poors» Beynəlxalq Reytinq Agentliyinin düzgün qiymətləndirmə verdiyini təsdiqləmişdir. «Standard & Poors» hesab edir ki, 2012-2014-cü illərdə Azərbaycanın ticarət balansının müsbət saldosu ümumi daxili məhsulun 20%-nə çatacaqdır.

İqtisadçı ekspertlərin qənaətincə, bir sıra ölkələrdə mənfi təsirləri hələ də qabarıq sezilən qlobal iqtisadi böhran fonunda «Fitch» Beynəlxalq Reytinq Agentliyinin Azərbaycanın uzunmüddətli yerli və xarici valyuta üzrə reytinqini sabit saxlaması son illərdə respublikada yerli və xarici sahibkarlığın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Bazar iqtisadiyyatı tələblərinə uyğun funksional idarəetmə mexanizmlərinin formalaşdırılması, dövlət strukturlarının iqtisadi fəaliyyət sahələrinə nəzarətinin təkmilləşdirilməsi nəticəsində liberal bazar prinsiplərinin daha geniş vüsət alması özəl sektorun inkişafına təkan vermişdir. Bu baxımdan, kiçik və orta sahibkarlıq subyektlərinə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artırılması, iş




adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, sahibkarlıq subyektlərinin qeydiyyatı sisteminin sadələşdirilərək «bir pəncərə» prinsipi əsasında aparılması, gömrük orqanlarında da bu sistemin təşkili, texnoparkların yaradılması, korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi və s. kimi addımları xüsusi vurğulamaq lazımdır.

Vergi yükünün azaldılması və vergi prosedurlarının asanlaşdırılması məqsədilə 2010-cu ilin yanvarından mənfəət vergisinin 22%-dən 20%-yə, fiziki şəxslər üçün gəlir vergisinin maksimal dərəcəsinin 35%-dən 30%-dək, fərdi sahibkarlar üçün isə 20%-dək endirilməsi, habelə sadələşdirilmiş vergi ödəyicisi hüququ əldə etmək üçün hüquqi şəxslərin vergi tutulan əməliyyatlarının illik həcminin 90 min manatdan 150 min manatadək artırılması biznes mühitinin liberallaşmasına müsbət təsir göstərmişdir. Modern idarəetmə texnologiyalarının tətbiqi ilə yanaşı, infrastrukturun müasirləşdirilməsi tədbirləri, bu sahəyə dövlət əsaslı kapital qoyuluşlarının həcminin ildən-ilə artması da biznesin inkişafına dəstək tədbirlərinin nəticəsidir.

İqtisadiyyata xarici investisiyaların cəlb edilməsi sahəsində görülən məqsədyönlü tədbirlər çərçivəsində Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyəti genişləndirilmiş, qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması və ixracın təşviqi məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu yaradılmışdır. Fond ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara yaxından dəstək verir.

Beynəlxalq hesabatlarda Azərbaycanda əlverişli investisiya mühitinin formalaşmasında vergi xidməti orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi tədbirlərinin əhəmiyyəti də xüsusi vurğulanır. Qeyd olunur ki, biznes mühitinin sağlamlaşdırılmasına xidmət edən islahatlar nəticəsində ölkədə güclü nəzarət mexanizmlərinə malik vergi inzibatçılığı formalaşdırılmış, vergi orqanları ilə vergi ödəyiciləri arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələr sistemi yaradılmışdır. Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin tətbiqi nəticəsində vergi xidməti müasir informasiya texnologiyalarına malik xidmətlərdən birinə çevrilmişdir.

Vergi bəyannamələrinin təqdim edilməsinin, fiziki və hüquqi şəxslərin dövlət qeydiyyatının, habelə vergi və rüsumların büdcəyə ödənişinin elektron formada həyata keçirilməsi ölkənin investisiya cəlbediciliyini artırır. Elektron xidmətlərin tətbiq sahəsinin genişləndirilməsi həm də korrupsiyaya və digər neqativ hallara qarşı mübarizə sahəsində sistemli islahatların tərkib hissəsi kimi müsbət rol oynayır.

**Samir MUSTAFAYEV**



Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

Rakurs

## Vergi ödəyicilərinin hüquqları və vergi orqanlarının səlahiyyətləri nisbəti

Vergi orqanlarının vergi ödəyicisinin bank hesabları və əməliyyatları barədə bank təşkilatlarından məlumatların alınması üzrə hüquqları, beynəlxalq təcrübədə olduğu kimi, müəyyən istisnalar nəzərə alınmaqla həyata keçirilir. Qeyd etmək lazımdır ki, bu istisnalar həm ayrı-ayrı ölkələrin təcrübəsində, həm də vergi ödəyiciləri və bəzi kateqoriya vətəndaşlara münasibətdə fərqlənir. Lakin bütün hallarda qanunvericilikdə müəyyən olunmuş şərtlər daxilində heç bir kateqoriyaya aid olan qrup vətəndaş yoxdur ki, onun haqqında bank məlumatları tələb olunduğu halda bank tərəfindən zəruri məlumatlar təqdim edilməsin. Lakin əvvəlcədən bu haqda müştəriyə məlumat verilir, müəyyən müddətdən sonra isə zəruri məlumatlar vergi orqanlarının səlahiyyətli şəxsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada təqdim olunur.

Azərbaycanın qanunvericiliyində də vergi ödəyicisinin bank hesabları və əməliyyatları barədə məlumatların təqdim olunmasına dair prosedurlar Vergi Məcəlləsində nəzərdə tutulub. Burada yalnız hüquqi şəxslərin və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər haqqında məlumatların vergi orqanları tərəfindən bütün zəruri addımlar atıldıqdan sonra da təqdim edilmədiyi halda tələb olunması nəzərdə tutulur.

Belə ki, Vergi Məcəlləsinin 76-cı maddəsinə əsasən vergi ödəyicisinin bank hesabları və əməliyyatları barədə məlumatlar yalnız bu maddədə göstərilən hallarda, yəni gəlirlər və xərclərin uçotu aparılmadıqda, mühasibat və hesabat sənədləri təqdim edilmədikdə, ərazi və ya binalara daxil olmağa icazə verilmədikdə müvəkkil banka yazılı bildiriş göndərməklə həmin bankdan alınır. Bu zaman bank tərəfindən məlumatların vergi orqanına veriləcəyi barədə 5 gün ərzində hüquqi şəxsə və fərdi sahibkara rəsmi məlumat göndərilir. Bildirişdə göstərilən məlumatların verilməsinə etiraz edilməsi haqqında vergi ödəyicisinin ərizəsinə məhkəmədə baxılacağı barədə aidiyyəti məhkəmədən məlumat 15 gün ərzində daxil olmadıqda, müvəkkil bank vergi ödəyicisinin hesabları və ya əməliyyatları barədə məlumatı vergi orqanına göndərir.

Beynəlxalq təcrübədə vergi borclarının məcburi alınması ilə bağlı vergi orqanlarına səlahiyyətlərin verilməsi, demək olar ki, əksər ölkələr, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan ölkələr üçün ümumi xarakter daşıyır. Burada əsas amillərdən birincisi borclu vergi ödəyicisinin əmlaka sərəncam vermə hüquqlarının məhdudlaşdırılması ilə, ikincisi isə vergi borcunun ödənilməsi üçün ödəyicinin əmlakının satışa çıxarılmasından ibarətdir. Onu da qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatlı ölkələrdə xüsusi mülkiyyətin toxunulmazlığı prinsipindən irəli gələrək əmlakın satışa çıxarılması barədə məhkəməyə müraciət yalnız borcun könüllü ödənilməsi üçün bütün mümkün tədbirlər görüldükdən sonra həyata keçirilir. Bir çox ölkələrdə, o cümlədən Avstriyada, Belçikada, Almaniyada, Fransada, Finlandiyada, Norveçdə vergi orqanları yalnız vergi ödəyicisinə tələbnamə göndərildikdən və tələbnamədə göstərilən müddət bitdikdən sonra borcun məcburi qaydada alınmasını həyata keçirə bilər. ABŞ-da, Türkiyədə, İsveçrədə və Yaponiyada isə borcun ödənilməməsi riski yüksək olduqda borcun məcburi alınması tələbnamədə göstərilən müddət bitənədək həyata keçirilə bilər.

### *Beynəlxalq təcrübədə vergi borclarının məcburi alınması ilə bağlı vergi orqanlarına səlahiyyətlərin verilməsi dünya ölkələri üçün ümumi xarakter daşıyır*

Azərbaycanda vergi borclarının məcburi alınması vergi ödəyicisinə bildiriş göndərildikdən və bildirişdə göstərilən müddət bitdikdən sonra həyata keçirilir. Belə ki, Vergi Məcəlləsinin 65-ci maddəsinə əsasən vergi ödəyicisi vergi öhdəliyini bu Məcəllə ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə vergi orqanı vergi öhdəliklərinin 5 gün müddətində ödənilməsinə dair vergi ödəyicisinə bildiriş göndərir. Hesablanmış vergilər, faizlər və ya tətbiq edilmiş maliyyə sanksiyaları vergi ödəyicisi tərəfindən bildirişdə göstərilən müddətdə ödənilmədiyi halda, vergi orqanı vergi ödəyicisinin bank hesablarından borcun dövlət büdcəsinə alınması üçün bank təşkilatına icra (ödəniş) sənədi olan sərəncam verir. Eyni zamanda, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən vergi ödəyicisi vergi öhdəliyini bu Məcəllə ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilər. Bu zaman vergi ödəyicisinin siyahıya alınmış əmlaka və ya onun bir hissəsinə sərəncam vermək hüququ məhdudlaşdırılır, əmlaka sahiblik və ondan istifadə edilməsi vergi orqanının nəzarəti ilə həyata keçirilir. Vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilmədikdə vergi orqanı vergi öhdəliyinin icrasının təmin olunması məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər.

Qeyd olunmalıdır ki, vergi orqanlarının yuxarıda göstərilən və qanunvericiliklə müəyyən olunmuş digər səlahiyyətlərinin həyata keçirilməsinə paralel olaraq, vergi ödəyicilərinin qanuni maraqlarının qorunmasının təmin olunması vergi siyasətinin əsas prioritet istiqamətlərindən biridir və bu sahədə qabaqcıl dünya təcrübəsi öyrənilməklə qanunvericiliyin təkmilləşdirilməsi daimi diqqət mərkəzində saxlanılır.

# «195»dən istifadə edənlərin sayı günbəgün artır

2012-ci ilin aprel ayı ərzində Vergilər Nazirliyinin Telefon-məlumat xidmətinə daxil olmuş 28.708 müraciət, o cümlədən müfəttiş-operatorlar tərəfindən canlı rejimdə 16.179, avtomatik rejimdə elektron operator tərəfindən 12.529 müraciət cavablandırılmışdır. 73.541 vergi ödəyicisi mesaj göndərilməklə məlumatlandırılmışdır. 2011-ci ilin aprel ayı ilə müqayisədə canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılan müraciətlərin sayı 49,5%, avtomatik rejimdə elektron operator tərəfindən cavablandırılan müraciətlərin sayı 1,4%, mesaj xidməti vasitəsilə məlumatlandırılan vergi ödəyicilərinin sayı isə 8,5 dəfə artmışdır.

Hesabat dövründə vergi ödəyiciləri daha çox elektron xidmətlər (27,4%), hesabatlar və onların doldurulma qaydaları (15,4%), vergi növləri (13,3%), qeydiyyat (12,6%), büdcə və vergi orqanının rekvizitləri (9,6%), vergi ödəyicilərinə göndərilmiş mesajlar (5,8%) barədə məlumat əldə etmək istəmişlər. Avtomatik rejimdə cavablandırılmış suallar arasında isə vergi növləri və dövlət büdcəsinə olan vergi borcları barədə suallar üstünlük təşkil etmişdir.

Vergi ödəyicilərindən daxil olan sualların 99,1%-nə müfəttiş-operatorlar dərhal, 0,9%-nə isə sual vərəqəsi tərtib edilərək araşdırıldıqdan sonra cavab vermişlər. Sualların 81,8%-i Bakı şəhərindən, 12,2%-i mobil operatorlardan, qalanları isə ölkənin müxtəlif bölgələrindən daxil olmuşdur.

Hesabat dövründə əhalidən şikayət (ərizə) və məlumat xarakterli 48 müraciət qəbul edilərək baxılması üçün aidiyyəti üzrə göndərilmişdir.




## Yanvar-aprel aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 2 milyard 237 milyon manat vəsait daxil olub

2012-ci ilin ilk dörd ayında Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2 milyard 236 milyon 977,1 min manat təşkil etmişdir. Vergi daxilolmalarının 46,2%-i mənfəət vergisinin, 20,9%-i əlavə dəyər vergisinin, 10,8%-i fiziki şəxslərin gəlir vergisinin, 6,4%-i aksizlərin, 15,7%-i isə digər vergilərin payına düşür.

Qeyri neft-qaz sektoru üzrə 1 milyard 114,7 milyon manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 17,3% çoxdur.

Yanvar-aprel aylarında respublika üzrə qeydiyyatdan keçmiş vergi ödəyicilərinin ümumi sayı 26 min 597, 2011-ci ilin iyul ayının 1-dən cari ilin may ayının 1-dək elektron qaydada qeydiyyata alınmış fiziki şəxslərin sayı 26 min 416 olmuşdur. 1 may 2012-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 443.592 olmuşdur.

2012-ci ilin yanvar-aprel ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 91,7% təşkil etmişdir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir.

# Gəlir vergisindən azad olunan ödənişlər

### İstehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində sağlamlığını itirmiş işçiyə müəssisə tərəfindən edilən ödənişlər (müavinətlər) gəlir vergisinə cəlb olunurmu?

Vergi Məcəlləsinin tələblərinə əsasən, rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridir. Rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir. Qeyri-rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikası mənbələrindən əldə etdiyi gəlirlərdən ibarətdir. Gəlirlərə muzdlu işlə əlaqədar əldə edilən gəlir, muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir və vergilərdən azad edilən gəlirlərdən başqa bütün digər gəlirlər aiddir.

Bildiyimiz kimi, Vergi Məcəlləsinin 102-ci maddəsində gəlir vergisindən azadolmalara və güzəştlərə aid olan normalar təsbit olunmuşdur. Həmçinin, Vergi Məcəlləsinin 102.1.4-ci maddəsinin tələblərinə əsasən, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə Azərbaycan Respublikasının qanunları və müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar gəlir vergisindən azaddır.

Eyni zamanda, Vergi Məcəlləsinin 102.1.14.4-cü maddəsinin tələblərinə əsasən, ağır, zərərli və təhlükəli istehsalatlarda işçilərin tibbi müayinədən keçirilməsi üçün işəgötürənin hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilmiş xərc məbləğləri gəlir vergisindən azaddır.

İstehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində sağlamlığını itirmiş işçiyə müəssisə tərəfindən edilən ödənişlər (müavinətlər) Vergi Məcəlləsinin müvafiq maddələrində göstərilən ödənişlərə aiddirsə, həmin ödənişlər gəlir vergisindən azaddır.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya bu elektron poçt ünvanlarına
göndərə bilərsiniz: **s.musayeva@taxes.gov.az**, **anar.eliyev@taxes.gov.az**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2012-ci ilin yanvar-aprel ayları ərzində ölkəmizdə ümumi daxili məhsul istehsalı **16,6 milyard manat** təşkil etmişdir. Adambaşına düşən ÜDM-in həcmi orta hesabla 1820 manata və ya 2314,6 ABŞ dollarına çatmışdır.
- Cari ilin ötən dörd ayı ərzində **12,3 milyard manatlıq** sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı **11,2%** artmışdır.
- 2012-ci ilin dörd ayı ərzində əhalinin hər nəfərinə düşən gəlirləri 12,6% artaraq **1.068,6 manata** çatmışdır. Orta aylıq əmək haqqı 8,7% artaraq **378,9 manat** təşkil etmişdir.

# Plastik kart biznesinin inkişaf istiqamətləri

## *Ötən il Azərbaycan Beynəlxalq Bankının ödəniş kartları vasitəsilə həyata keçirilən əməliyyatların sayı 20 milyonu, həcmi isə 3 milyard manatı ötmüşdür*

**Azərbaycan Beynəlxalq Bankının (ABB) Bank kartları şöbəsinin baş mütəxəssisi Könül Sultanovanın «Vergilər» qəzetinə müsahibəsi**

***- Könül xanım, nağdsız ödənişlər bazarının inkişaf etdirilməsi sahəsində ölkənin ən iri banklarından biri kimi Azərbaycan Beynəlxalq Bankı hansı addımlar atır?***

- Fəaliyyətə başlamasının 20 illiyini qeyd etməyə hazırlaşan Azərbaycan Beynəlxalq Bankı (ABB) ölkəmizdə kart biznesi ilə məşğul olan ilk bankdır. ABB bank kartları biznesinə bu gün də böyük əhəmiyyət verir. «VISA International» və «MasterCard Worldwide» beynəlxalq ödəniş sistemlərinin tam hüquqlu üzvü və «American Express», «Diners International» şirkətlərinin Azərbaycanda eksklüziv tərəfdaşı olan ABB plastik kartların buraxılması və onlardan istifadə sahəsində xidmətlərin geniş spektrini təqdim edir. Özünün prosessinq şirkətinin olması ABB-yə plastik kart sahiblərinə xidmətin keyfiyyətini yüksəltməyə və tez-tez yeni bank məhsulları yaratmağa imkan verir.

ABB nağdsız ödənişlərin miqyasını genişləndirmək məqsədilə bir sıra layihələr həyata keçirir. Bankımız ticarət məntəqələrində kartla ödənişi stimullaşdırmaq üçün yeni xidmətlər üzərində çalışır. Buna elektron-ticarət xidmətini misal göstərmək olar. Bu xidmətə qoşulan müəssisələrin sayı günbəgün artmaqdadır. Artıq istifadəçilər bir çox lazımlı xidmət və məhsulları yerli elektron-ticarət məntəqələrindən əldə edir, kart sahibləri kommunal, rabitə, mobil rabitə və digər xidmətlərə görə haqları təkcə bankomatdan istifadə etməklə deyil, həm də internet vasitəsilə ödəyə bilirlər. Bu gün vətəndaşların geniş istifadə etdikləri «MobilBanking», «Internetbanking» xidmətləri də müasir bazar şəraitində plastik kartlardan istifadə yolu ilə həyata keçirilir.

***- ABB-nin plastik kartlarından nə qədər insan istifadə edir? Kart infrastrukturu ilə bağlı hansı təşkilatlarla əməkdaşlıq edirsiniz?***

- Hazırda ABB kartlarının sayı 1.870.275 ədəd təşkil edir: bunların 1.827.000-i debet, 43.275 isə kredit kartlarıdır. Bu göstərici ölkə üzrə plastik kart bazarının 40%-ni təşkil edir.

***- ABB-nin ödəniş kartları vasitəsilə həyata keçirilən əməliyyatların dövriyyəsini necə qiymətləndirmək olar? Bu sahədə bazarın dinamikası necə səciyyələndirilə bilər?***

- Ötən il ərzində bankın bütün kartları üzrə həyata keçirilən kart əməliyyatlarının sayı 20 milyondan çox olmuş, həcmi isə 3 milyard manatı ötmüşdür. Müqayisə üçün qeyd etmək istərdim ki, 2002-ci ildə ABB-nin plastik kartlarının sayı cəmi 28 min ədəd, bu kartlarla aparılan əməliyyatların həcmi isə 71 milyon ABŞ dolları olmuşdur. Bu sahədə bazarın artım dinamikası göz önündədir. Kart vasitəsilə əməliyyatların sayının artması banklar tərəfindən yeni tətbiq olunan xidmətlərdən müştərilərin geniş istifadəsi ilə də əlaqədardır.

Bankımız tərəfindən tətbiq olunan «Elektron Depozit» adlı xidmət plastik kart müştəriləri üçün kartdakı məbləği nağdlaşdırmadan bankomatlar, «Internetbanking» sistemi və məlumat köşkləri vasitəsilə əmanət qoymaq imkanını yaradır. Qeyd edək ki, indi kiməsə pul göndərmək üçün bankomatdan pul çıxarıb, sonra banka gəlmək və köçürmə etməyə ehtiyac yoxdur. Elə bankomat vasitəsilə bir kartdan digər karta - dünyanın istənilən yerinə bir dəqiqə ərzində köçürmə həyata keçirmək mümkündür.

***- Nağdsız ödənişlər bazarının mövcud vəziyyətini necə qiymətləndirərdiniz?***

- Prezident İlham Əliyevin 9 dekabr 2004-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş Azərbaycanda müasir ödəniş sistemlərinin təkmilləşdirilməsi və inkişafı üzrə Dövlət Proqramı müasir ödəniş sistemlərinin inkişafında irimiqyaslı islahatların aparılması üçün münbit şəraitin yaranmasına təkan verib. Proqramın qəbul edildiyi vaxtdan Azərbaycanda pensiyaların, müxtəlif müavinətlərin, əlavələrin, həmçinin büdcə təşkilatlarında işləyənlərin əməkhaqlarının plastik kartla verilməsi ilə kart bazarının inkişafına və təkmilləşdirilməsinə nail olunub.

2012-ci il yanvarın 1-dək Azərbaycanda 4,58 mln. aktiv kart vardı. 2011-ci ildə kartlarla aparılan əməliyyatların ümumi sayı 51 milyona çatmışdı. Bu isə təxminən bir karta 12 əməliyyat düşdüyünü göstərir. Müqayisə üçün bildirək ki, Ukraynada hər karta 1, Polşada isə 3-4 əməliyyat düşür. Bu gün Azərbaycanda kartdan istifadənin inkişaf tempi Türkiyə ilə eyni səviyyədədir.

***- ABB POS-terminalların quraşdırılması ilə bağlı hansı işlər görüb?***

- ABB ekvayerinq şəbəkəsini daim inkişaf etdirir. Vergilər Nazirliyinin və Mərkəzi Bankın dəstəyi əsasında POS-terminalların quraşdırılmasında nəzərəçarpan dəyişikliklər müşahidə olunmaqdadır. Görülən işlərin nəticəsində yüzlərlə ticarət və xidmət məntəqəsi bank kartları ilə xidmətə cəlb edilmiş, mağazalarda, butiklərdə, restoranlarda, hotellərdə və başqa obyektlərdə kartlardan istifadə üçün ABB tərəfindən 3.978 ədəd POS-terminal yerləşdirilmişdir. Sözsüz ki, bu rəqəm günbəgün artır.

ABB-nin kartları vasitəsilə həyata keçirilən əməliyyatların dövriyyəsi ilbəil artmaqdadır. Məsələn, 2010-cu il ərzində ölkədaxili POS-terminallar üzrə əməliyyatların sayı 173.666, həcmi 17.378.659 manat təşkil etmişdi. 2011-ci ildə isə əməliyyatların sayı 644.852, həcmi isə 22.022.255 manat olmuşdu.

Hazırda ABB və DİN-in Baş Dövlət Yol Polisi İdarəsi DYP postlarında və patrul avtomobillərində POS-terminalların quraşdırılması işini davam etdirirlər. Bu cihazlar vasitəsilə qaydaları pozan avtomobil sürücüləri yerindəcə cərimə ödəyəcəklər. Ölkə bankları, o cümlədən ABB hazırda simsiz GPRS POS-terminalları quraşdırmağa başlamışlar, bu, adi terminallara nisbətən tranzaksiyaların emalını 10 dəfələrlə sürətləndirir. ABB-nin 650-dən çox ATM-dən ibarət bankomat şəbəkəsi də bütünlüklə simsiz rabitə ilə təchiz edilmişdir.

***- ABB nağdsız ödənişlər bazarının, kart biznesinin inkişafı ilə bağlı hansı strateji hədəfləri nəzərdə tutur?***

- Hədəflərimiz və artıq reallaşmaq üzrə olan layihələrimiz çoxdur. Belə ki, yeni kart məhsullarının buraxılması və xidmətlərin hazırlanması nəzərdə tutulub. Beynəlxalq səviyyədə kartla pul köçürmələrinin həyata keçirilməsi üçün xidmətlər hazırlanır. Elektron ödənişlərdən başlayaraq elektron depozitləri əhatə edəcək səviyyədə yeni məhsul və xidmətlər təklif olunacaq.

***- Vətəndaşların POS-terminallardan istifadə etməsini stimullaşdırmaq üçün ABB hansı tədbirləri həyata keçirir, bu istiqamətdə hansı planlar var?***

- Hazırda bankımız tərəfindən POS-terminalların quraşdırılması üçün tarif dərəcələri tətbiq olunmur. Ona görə birmənalı qaydada müştəriləri POS-terminalın quraşdırılması üçün müraciət etməyə dəvət edirik. Plastik kartdan istifadənin müsbət cəhətlərinin təbliğ olunması ilə müştəriləri cəlb etməyə çalışırıq. Ödənişlərin elektron şəkildə həyata keçirilməsini təşkil etməklə yeni xidmətlər hazırlayırıq. Bankımız kartlar ilə xidmətin tarif dərəcələrini aşağı salmışdır. Eyni zamanda, kart istifadəçiləri üçün səmərəli xidmətlər təklif olunur. Sadəcə, ABB-nin saytına daxil olmaqla bu xidmətlər barədə məlumatlar əldə etmək olar.

Bankımız tanınmış beynəlxalq təşkilatlara aid kartları buraxmaqla yanaşı, kart sahiblərinin, xüsusilə dövriyyəsi çox olan müştərilərin nağdsız hesablaşmalarda iştirakını fəallaşdırmaq məqsədilə müxtəlif stimullaşdırıcı aksiyalar həyata keçirir. Daha ətraflı



təhlil üçün statistikaya nəzər salaq: yalnız ABB üzrə 2009-cu ilin yanvar ayı ilə 2012-ci ilin yanvar ayı arasında kartlarla aparılan nağdsız əməliyyatlar üzrə fərq debet kartları üzrə 50%, kredit kartları üzrə 34% artımla müşayiət olunmuşdur. Bu inkişaf insanlar arasında artıq nağd puldan istifadə hallarının azalmasının göstəricisidir. Bu, əlbəttə, sevindirici haldır.

***- Ümumiyyətlə, ABB kartlardan istifadənin miqyasının genişlənməsi üçün hansı güzəştləri tətbiq edir?***

- ABB tərəfindən bir çox güzəştlər təklif olunur. Buna «Bonus» layihəsini misal göstərə bilərik. Adi endirimlərdən fərqli olaraq, bonus işarəsi olan ticarət və xidmət müəssisələrində alış-veriş zamanı müştəri bonus balı qazanmış olur. O, qazandığı bonusları istədiyi zaman «Bonus Club» şəbəkəsinə daxil olan bütün ticarət və xidmət müəssisələrində xərcləyə bilər. Bir çox ticarət məntəqəsində tətbiq olunan bu xidmət VISA kart sahiblərinə kartla ödəniş apararkən hər biri bir manata bərabər bonuslar əldə etmək imkanı yaradır. Eyni zamanda, xarici təşkilatlara üzv olmamız istifadəçilərimizə bir çox güzəştlər təklif etməyə imkan yaradır. Məsələn, «Premium» kartları üçün dünya miqyasında endirimlər təklif olunur.

Kart sahibləri üçün güzəştlərdən əlavə, maksimum rahatlığın təmin olunması da önəmlidir. Ötən ildən etibarən Azərbaycan Beynəlxalq Bankının təsisçisi olduğu «Azericard» Prosessinq Mərkəzi «SMS Xəbərdarlıq» xidmətinin tətbiqinə başlayıb. Bu xidmətə qoşulan plastik kart sahibinin kart vasitəsilə apardığı bütün əməliyyatlar barədə məlumatlar avtomatik olaraq müştərinin mobil telefonuna daxil olur. Belə ki, əgər müştərinin kart hesabına hər hansı köçürmə, o cümlədən əməkhaqqı və ya pensiyanın karta oturduğu barədə məlumat dərhal müştərinin mobil telefonuna göndərilir. Bu xidmət bütün kart sahiblərinə şamil edilir. Onu da qeyd edim ki, müştəri kartına aid PİN-kodu da bankomat vasitəsilə dəyişib, öz istədiyi şəkildə dördrəqəmli kod əldə edə bilər. Kart-transfer, «3D security» kimi yeni xidmətlərimiz kartdan-karta pul köçürməklə yanaşı, təhlükəsiz internet ödənişi etməyə imkan yaradır.

Yeni istifadəyə verilən digər bir xidmətimiz - «Cash by code» müştəriyə (ölkə ərazisində, eləcə də Rusiyaya və əksinə) kartı olmayan şəxsə bankomat vasitəsilə pul göndərməyə və həmin şəxsin də kartdan istifadə etmədən bankomatdan vəsait çıxarmağa imkan verir. Karta vəsait qoymağı müştəri üçün asanlaşdırmaq məqsədilə yeni «CASH-in» ATM-ləri ilə yanaşı, filial və şöbələrimizdə POS-kredit terminalları quraşdırılmışdır. Müştəri, sadəcə, kartını təqdim etməklə vəsaiti onlayn rejimdə kart balansına yerləşdirə bilər.

***- ABB-nin Azərbaycanda nağdsız iqtisadiyyatın qurulması ilə bağlı hansı təklifləri var?***

- Hazırda Avropa ölkələri, o cümlədən Türkiyə Cümhuriyyəti 2023-cü ilədək tam nağdsız bazar sisteminə keçidi planlaşdırırlar. Xarici ölkələrin təcrübəsi əsasında deyə bilərik ki, elektron ticarət xidmətlərindən istifadə çox əhəmiyyətlidir. Avropa ölkələrində alıcılar tərəfindən bu xidmətdən istifadə halları son üç ildə hər il 50% artmışdır. Son dövrlərin artım tempini nəzərə alsaq, inanıram ki, həmin tarixə ölkəmizi də bu sırada görə bilərik.

ABB-nin təklifləri kart istifadəçilərini kartla ödəniş etmək üçün stimullaşdırmaqla bağlıdır. Bu istiqamətdə kütləvi informasiya vasitələri ilə vətəndaşlara kartdan istifadə barədə geniş məlumat verməyə çalışırıq. Eyni zamanda, ticarət müəssisələri üçün də həvəsləndirici güzəşt kampaniyaları hazırlanır. Kart əməliyyatlarının sayı artdıqca prosessinq şirkətləri tərəfindən xidmət tariflərinin endirilməsi də stimulverici bir addım olardı.

**Elbrus CƏFƏRLİ**

# Regionların inkişafı diqqət mərkəzindədir

*Regionların sosial-iqtisadi inkişafı ilə bağlı 2009-2013-cü illəri əhatə edən ikinci Dövlət Proqramının başa çatmasına bir ildən az vaxt qalır. Proqramın həyata keçirilməsi istiqamətində görülmüş işlər ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuş, qeyri-neft sektorunun davamlı inkişafına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, regionlarda kommunal, xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəlməsinə təkan vermiş, sahibkarlıq mühitinin daha da yaxşılaşmasında, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində və yoxsulluğun azalmasında mühüm rol oynamışdır.*

### *Dövlət Proqramında qoyulmuş vəzifələr uğurla həll edilir*

Prezident İlham Əliyev 2013-cü ilə qədər regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar Dövlət Proqramının icrası ilə bağlı hökumət üzvlərinə verdiyi tapşırığa uygun olaraq, bu vaxta qədər həll olunmamış məsələlərin, o cümlədən bütün bölgələrdə əhalini narahat edən problemlərin aradan qaldırılması əsas prioritet vəzifə kimi qarşıya qoyulmuşdur.

Qeyd edək ki, 2009-cu ildən 2012-ci ilə qədər ölkə üzrə 14 min 700-dən çox müəssisə fəaliyyətə başlamış və onlardan 180 mini daimi omaqla 241 min yeni iş yeri yaradılmışdır. Yoxsulluğun səviyyəsi isə 7,6%-dək endirilmişdir. Sahibkarlığın davamlı inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması, daxili və xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun genişləndirilməsi nəticəsində özəl sektorun ölkə iqtisadiyyatında payı 80%-dən çox olmuşdur.

### *Regionlarda müəssisələrin sayı artır*

Respublikamızda sahibkarlıq subyektlərinin dövlət qeydiyyatının tamamilə asanlaşdırılması onların sayının çoxalmasına və yeni iş yerlərinin sayının artmasına rəvac verir. 2011-ci ildə ölkəmizdə 5137 yeni müəssisə yaradılmış və bunun da nəticəsində 94111 yeni, o cümlədən 72353 daimi iş yerləri açılmışdır. Regionların sosial-iqtisadi inkişafına istiqamətlənmiş ikinci Dövlət Proqramının icrasını əhatə edən 01 yanvar 2009-cu il tarixindən 01 yanvar 2012-ci il tarixinə qədər olan dövr ərzində isə cəmi 240733 yeni, o cümlədən 179589 daimi iş yeri yaradılmışdır.

Özəl sektorda 96,3% təşkil edən yeni açılmış daimi iş yerlərinin mütləq əksəriyyəti qeyri-neft sektorunda, o cümlədən 5,2%-i tikinti, 4,7%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 3,3%-i emal sənayesi, 1,8%-i maliyyə və sığorta fəaliyyəti, 1,4%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, eləcə də digər fəaliyyət sahələri üzrə ixtisaslaşan müəssisə və təşkilatlarda yaradılmışdır.

Cari ilin birinci rübü ərzində 20 minə yaxını daimi olmaqla 24 min yeni iş yeri açılmışdır. Qeyri-neft sektoru yeni iş yerlərinin yaradılmasında həlledici rol oynamış, 1,2 min yeni müəssisə yaradılmışdır ki, bu müəssisələrin 84,3%-i xüsusi mülkiyyətli müəssisələr olmuşdur.

**Rəşad SADIQOV**



# Azərbaycan iqtisadi yüksəliş yolunda

**Cari ildə ölkə iqtisadiyyatına 20 milyard dollar sərmayə qoyulacağı proqnozlaşdırılır**

Ötən il Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda artımı 10% civarında olmuşdur. Sahibkarlığın inkişafına hərtərəfli dövlət dəstəyinin göstərilməsi, sahibkarlara güzəştli kreditlərin ayrılması, xüsusilə sənayenin əsaslı şəkildə inkişafının diqqət mərkəzində olması dövlət siyasətinin prioritet istiqamətlərinə çevrilmişdir. Bu siyasətin cari ildə də davam etdiriləcəyi və ölkə iqtisadiyyatına ən azı 20 milyard dollar sərmayə qoyulacağı, bunun təxminən 9 milyard dollarını dövlət investisiyasının təşkil edəcəyi proqnozlaşdırılır.

***2012-ci ilin birinci rübündə regionlarda davamlı iqtisadi inkişafın təmin edilməsi ilə makroiqtisadi göstəricilərin daha da yaxşılaşmasına nail olunmuş, iqtisadiyyatda ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,5%, əhalinin gəlirləri isə 12,3% artmışdır***









Yaradılmış əlverişli investisiya mühiti 2012-ci ilin birinci rübündə ölkə iqtisadiyyatına yatırılan investisiyaların artımını təmin etmişdir. Sözügedən dövrdə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2 milyard 099,4 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16,5% çox vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 72,8%-i daxili investisiyanın, 27,2%-i xarici investisiyanın hesabına formalaşmışdır.

**ÜDM artımı bütövlükdə qeyri-neft sektoru hesabına təmin olunmuşdur**

Makroiqtisadi sabitliyi nəzərə alaraq cari ildə də bütövlükdə iqtisadiyyatın, o cümlədən regionlarda ayrı-ayrı sahələrin inkişafının başlıca şərtlərindən biri olan orta illik inflyasiya tempinin və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanılması, vergi dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq edilən güzəştlərin müddətinin artırılması, yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması, gömrük dərəcələrinin optimal səviyyədə saxlanılması, xarici borcların səmərəli idarə olunması siyasəti davam etdirilir. Valyuta gəlirlərinin artırılması, inflyasiya risklərinin azaldılması, monetar və büdcə-vergi siyasətinin koordinasiyasının gücləndirilməsi, dövlət xərclərinin artımının nəzarətdə saxlanılması və digər tədbirlər hesabına makroiqtisadi vəziyyətə, habelə qeyri-neft sektorunun inkişafına mənfi təsirlərin qarşısının alınması iqtisadi siyasətin başlıca məsələləri hesab olunur. 2012-ci ilin birinci rübündə regionlarda davamlı iqtisadi inkişafın təmin edilməsi ilə makroiqtisadi göstəricilərin daha da yaxşılaşmasına nail olunmuş, iqtisadiyyatda ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,5%, əhalinin gəlirləri isə 12,3% artmışdır. Ölkə iqtisadiyyatının şaxələnməsi, onun neft sektorundan asılılığının minimuma endirilməsi istiqamətində ÜDM-in artımı bütövlükdə qeyri-neft sektoru hesabına təmin olunmuşdur. ÜDM istehsalı qeyri-neft sektorunda 7,7%, sənayenin məhsul istehsalında 16,5% artmış, özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 82,5%-ni təşkil etmişdir.

**Qeyri-neft sektorundan vergi daxilolmalarının həcmi ildən-ilə böyüyür**

Son illərdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı yürüdülən əsaslı islahatlar regionların vergi daxilolmalarının həcmində öz müsbət təsirini göstərmişdir. 2011-ci ildə ərazi vergilər idarələri üzrə dövlət büdcəsinə 425 milyon manat vəsait daxil olmuşdur ki, bu da müəyyən edilmiş proqnozun 119,6% icrası və ya dövlət büdcəsinə 69,7 milyon manat əlavə vəsaitin daxil olması deməkdir. 2010-cu ilin daxilolması ilə müqayisədə 80,1 milyon manat və ya 23,2% artım müşahidə olunmuşdur. Respublika üzrə qeyri-neftqaz sektorundan vergi daxilolmalarında ərazi vergilər idarələri üzrə daxilolmaların xüsusi çəkisi 14,8% təşkil etmişdir ki, bu da 2010-cu illə müqayisədə 0,2 bənd çoxdur. Ərazi vergilər idarələri üzrə 2012-ci ilin vergi daxilolmaları 414,4 milyon manat proqnozlaşdırılmışdır ki, bu da 2011-ci ilin proqnozundan 59,2 milyon manat və 16,7% çoxdur.

**Rəşad SADIQOV**

---



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Baxış bucağı

## Audit - onun mahiyyəti və ya fəlsəfəsi

Audit xidmətlərinin tərkibinə biznes planlaşdırılması, maliyyə, idarəetmə, risklərin idarə edilməsi, vergi təhlili, yeni standartlara keçid, qiymətləndirmə, daxili nəzarət və bu kimi saysız-hesabsız məsləhət xidmətlərini aid etmək olar. Sual oluna bilər ki, sahibkar sadaladığımız işləri həyata keçirə bilən işçilər işə götürə və onların əməyindən istifadə edə bilərsə, auditora ehtiyac qalarmı? Birmənalı olaraq vurğulayaq ki, bu qədər işi həm nəzəri, həm də praktiki cəhətdən mükəmməl bilən işçilərin tapılması vaxt itkisinə və təcrübəsizliyə gətirib çıxara bilər. Bu işin öhdəsindən daim qloballaşan dünya iqtisadi proseslərini, vaxtaşırı dəyişən yerli biznes və vergi rejimini, mühasibat işinə dair hüquqi aktların müasir tələblərini izləməklə böyük təcrübəyə malik auditorlar gələ bilərlər. Auditor, qanunvericiliyə uyğun olaraq, iqtisadi və ya hüquqi sahə üzrə ali təhsilə malik olmalı, müvafiq icra hakimiyyəti orqanı tərəfindən uğurla imtahan verməli və lisenziya əldə etməlidir.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanda fəaliyyət göstərən müəssisələrin əksəriyyətinin sahibləri auditor xidmətlərindən istifadəni israfçılıq hesab edirlər. Amma özləri də bilmədən qeyri-məhsuldar xərclərə böyük pullar xərcləyirlər. Həmin müəssisələrin sahibləri xarici bazara çıxacağından əmin deyildirsə və yalnız yerli qaydalara tabe olmağa işləməyə üstünlük verməklə kifayətlənirlərsə, bu, onun gələcəyinin dinamik olmayacağından və tez-tez risklərlə məruz qalacağından xəbər verir. Geriyə addımlamadan daim irəli atılmaq istəyən sahibkarlar isə auditorun, necə deyərlər, «xəstələnmədən müəssisə həkiminin» məsləhətlərindən və xidmətlərindən istifadədən yayınmırlar. Unutmaq olmaz ki, mütəmadi olaraq auditor araşdırmalarından («yoxlamalarından» demək düzgün olmazdı) keçərək müsbət və ya mənfi, - fərq etmez, - rəy alan müəssisələr barədə cəmiyyətdə həmişə belə bir düzgün fikir formalaşır ki, bu müəssisələrin təqdim etdiyi hesabatlara inanmaq olar, bu barədə qərarlar vermək asandır, çünki onlar olduqları kimidirlər. Hətta elə investorlar var ki, onlar mənfi rəy almış çökməkdə olan firma barədə kənar auditor tərəfindən düzgün məlumatlandırıldığına görə, həmin firmaya külli miqdarda sərmayə qoymuşdur. Auditin mahiyyəti və fəlsəfəsi də elə bundadır ki, müəssisə barədə düzgün «diaqnoz» qoyulsun və ona inam olsun.

Bəzən elə olur ki, müəssisəni idarə edənlərlə istifadəçilər (mükiyyətçilər, investorlar, kreditorlar) arasında mübahisəli hallar yaranır və bu vəziyyət, sözsüz ki, idarə edənlər tərəfindən qeyri-obyektiv informasiya verilməsi halları yarada bilər. Həm rəhbərlik, həm də istifadəçilər tərəfindən qəbul edilmiş qərarların nəticələri informasiyanın keyfiyyətindən çox asılıdır. Həmçinin, başı işgüzar aləmə qarışanların informasiyanın keyfiyyətini qiymətləndirmək imkanının olmaması və informasiyanı yoxlamaq üçün xüsusi biliklərin tələb olunması auditorlara ehtiyacı daha da artırır.

***Auditor xidmətlərinə aşağıdakılar da əlavə edilir:***

- mühasibat uçotunun təşkili, uçotun bərpası, uçot siyasətinin hazırlanması, bütün hesabatların tərtibində kömək göstərilməsi;
- MMUS və BMUS-a keçidlə bağlı xidmətlər;
- vergi planlaşdırılması və təhlil sahəsində məsləhət xidmətləri;
- ekspert qiymətləndirmələri və müəssisənin maliyyə nəticələrinin təhlili;
- maliyyə bə hüquq məsələləri, marketinq, menecment üzrə məsləhətlər verilməsi;
- risklərin idarə edilməsi üzrə məsləhət xidmətləri;
- təsis sənədlərinin və başqa təşkilati sənədlərin hazırlanması;
- gələcək tərəfdaşlar haqqında informasiya verilməsi;
- sifarişçilərə informasiya xidməti və s.

---

# Nağdsız ödənişlərin genişlənməsində bankların fəallığı yüksəlir

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin müvafiq dövlət qurumları ilə birlikdə respublikada elektron ödəniş sisteminin inkişafı, nağdsız dövriyyənin həcminin genişləndirilməsi sahəsində həyata keçirdiyi tədbirlər iqtisadiyyatın lokomotivi sayılan bank sektorunun fəaliyyətində də canlanma yaradıb. Müxtəlif ticarət və xidmət müəssisələrində POS-terminalların quraşdırılması prosesində yaxından iştirak edən banklar həm də nağdsız ödənişlərin təşviqinə xidmət edən bir sıra stimullaşdırıcı aksiyalar keçirirlər.*

«DəmirBank»ın İdarə Heyətinin sədr müavini Yusif Cabbarov Vergilər Nazirliyinin aidiyyəti qurumlarla birgə nağdsız ödənişlərin genişləndirilməsi sahəsindəki tədbirlərini yüksək dəyərləndirdiyini bildirmişdir. Bu prosesdə təmsil etdiyi bankın da yaxından iştirak etdiyini deyən Yusif Cabbarovun sözlərinə görə, «DəmirBank» qısa müddətdə 2000-dən çox POS-terminal quraşdırıb: «Bütün dünyada nağdsız ödənişlərin sürətlə genişlənməsi müşahidə edilir. Azərbaycanda da nağdsız ödənişlərin inkişafı üçün ölkə rəhbərliyinin, Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Mərkəzi Bankının dəstəyi ilə müxtəlif işlər həyata keçirilir. Bu məqsədlə POS-terminalların quraşdırılması işləri də xeyli genişlənib. Ölkədə əhalinin və Azərbaycana gələn xarici vətəndaşların nağdsız ödəniş etmələri üçün zəruri şərait yaradılıb. Son aylar ərzində «DəmirBank» nağdsız ödənişlərin inkişafı üçün 2000-dən çox POS-terminal quraşdırıb. Bu xidmət ticarət obyektlərinin nağd pul vəsaitlərinin daşınması, saxlanması və sayılması ilə bağlı maliyyə xərclərinin və vaxt sərfinin azaldılmasına kömək edir».

Yusif Cabbarov hesab edir ki, POS-terminalların quraşdırılması ölkədə vergi sisteminin təkmilləşməsinə, müasir bank texnologiyalarının və xidmətlərinin inkişafına, nağdsız ödənişlərin artımına, beləliklə də iqtisadiyyatda şəffaflığın daha da yüksəldilməsinə xidmət edir. Onun qənaətincə, əhali arasında müasir ödəniş vərdişlərinin geniş yayılması bank xidmətlərinə tələbatın artmasına gətirir, nəticədə banklarda müştərilərə daha yüksək xidmət göstərilir: «DəmirBank» «MasterCard International» və «VISA International» beynəlxalq ödəniş sistemlərinin üzvüdür. Bank müştərilərə Azərbaycan manatı, ABŞ dolları, avro, Böyük Britaniya funt-sterlinqi, Türkiyə lirəsi və BƏƏ dirhəmi ilə geniş çeşiddə plastik kartlar təqdim edir. Eyni zamanda, kart sahiblərinə «card-to-card» köçürmələri, SMS-bank, internet-bank və telefon-bank xidmətləri, habelə kartla kommunal, rabitə, internet, kabel televiziyası ödənişləri və sair xidmətlər təqdim edir. İnternet vasitəsilə nağdsız ödənişlərin artımı üçün də müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçirir. Müştəri məmnunluğunu artırmaq məqsədilə plastik kartlar sahəsində yeniliklər davam etdiriləcək».

«Kapital Bank» da Vergilər Nazirliyinin nağdsız ödəmələrin genişləndirilməsi sahəsindəki təşəbbüslərini müsbət qiymətləndirir. Bankın mətbuat xidmətinin rəhbəri Yadigar Cəfərli bildirir ki, «Kapital Bank» respublikanın ödəniş kartları bazarında kartların sayına, ekvayerinq şəbəkəsinin genişliyinə və bu sahədə göstərilən xidmətlərin müxtəlifliyinə görə xüsusi çəkiyə malikdir: «2012-ci ilin birinci rübünün yekunlarına əsasən, bankın aktiv ödəniş kartlarının sayı 2.160.915 ədəd olmuşdur. «MasterCard International» və «VISA International» beynəlxalq ödəniş sistemlərinin tam hüquqlu üzvü olan bank öz müştərilərinə müxtəlif növ ödəniş kartları təklif edir».

«Kapital Bank» özünün daxili prosessinq sisteminə malikdir. Yadigar Cəfərli qeyd etmişdir ki, bankın kartları vasitəsilə mobil rabitə, beynəlxalq danışıqlar və kommunal xidmətlər üzrə ödəmələrin həyata keçirilməsi, kartdan-karta pul köçürmələrinin aparılması ilə yanaşı, 2011-ci ilin əvvəlindən «İnternet-Banking» xidməti də tətbiq edilir. 1 may 2012-ci il tarixə «Kapital Bank»ın fəaliyyətdə olan bankomatlarının sayı 427 ədəd, POS-terminallarının sayı isə 579 ədəd olub. Müştərilər bankın 24 saat fəaliyyət göstərən özünəxidmət mərkəzinə gələrək müstəqil şəkildə kommunal xidmətlərdən, mobil rabitədən istifadə üzrə ödənişlər apara, valyuta mübadiləsi edə, hesablarını artıra və digər əməliyyatlar həyata keçirə bilərlər. Özünəxidmət mərkəzində 2 adi, 2 «cash-in» tipli bankomat, 1 valyuta mübadiləsi və 2 məlumat köşkü quraşdırılıb. «Cash-in» tipli bankomatlar bank texnologiyalarının son nailiyyətlərindən sayılır. Adi bankomatlardan fərqli olaraq, bu bankomatın köməyilə müştəri kart hesabına vəsait daxil edə bilər. Həmin vəsait «on-layn» rejimində dərhal hesaba əlavə olunur.

«Kapital Bank» ölkədə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə mütəmadi olaraq müxtəlif kampaniyalar da həyata keçirir. Bankın «Bizim market» mağazalar şəbəkəsi ilə birgə təşkil etdiyi və hazırda davam edən «Kartlı bazarlıq» lotereyası bu kampaniyalardan biridir. Məqsəd müştəriləri nağdsız ödənişlərə həvəsləndirməkdir. Kampaniyaya qatılmaq istəyən «Bizim Market» müştəriləri üçün bircə şərt var: alış-veriş zamanı ödənişi kart vasitəsilə aparmaq. Müştərinin ölkəmizdəki banklardan hansının ödəniş kartına sahib olması fərq etmir. Bütün yerli bankların ödəniş kartları bu kampaniyada keçərlidir.

**S.MUSTAFAYEV**

---

# Vergi inzibatçılığı: riskin idarə olunması və vergi ödəyicilərinə xidmət

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən 30 aprel - 4 may tarixlərində Türkiyənin paytaxtı Ankara şəhərində «Vergi inzibatçılığı: riskin idarə olunması və vergi ödəyicilərinə xidmət» mövzusunda seminar keçirilmişdir.

Seminarın əsas məqsədi riskin idarə olunması və vergi ödəyicilərinə xidmət sahəsində OECD tərəfindən qəbul edilmiş prinsip və praktikanın şərhi, bu sahədə iştirakçı ölkələrin təcrübələrinin öyrənilməsi və mübadiləsindən ibarət olmuşdur.



Seminarda vergi ödəyicilərinə xidmət sahəsinin inkişafı, məqsədi, vəzifələri, vergi ödəyicilərinin hüquqları, onlara göstərilən xidmətlərin standartları və s. məsələlər barədə təqdimatlar olmuş, müzakirələr aparılmışdır. Qeyd edilmişdir ki, vergi inzibatçılığında riskin idarə olunması mexanizmi mövcud olmalı, qərarların qəbul edilməsi zamanı risklər nəzərə alınmalıdır. Qəbul olunmuş ümumavropa prinsiplərinə görə, vergi sisteminin fəaliyyəti üzrə əsas risklər qeydiyyatla, bəyannamənin təqdim olunması, ödəniş və gəlirin, məlumatın gizlədilməsi ilə bağlı risklərdir.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin Monitorinq şöbəsinin rəisi Azər Şirinov və İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin əməkdaşı Eltəkin Məmmədov təmsil etmişlər. Seminarda Azərbaycanın vergi sistemi, vergi inzibatçılığı sahəsində aparılan islahatlar, vergi ödəyicilərinə xidmət sahəsi, xidmət kanalları və onlardan istifadə barədə seminar iştirakçılarına məlumat verilmiş, suallar cavablandırılmışdır.

# İcbari Sığorta Bürosu kompensasiya ödənişləri verəcək

*«İcbari sığortalar haqqında» yeni Qanunun tələblərinə uyğun olaraq, icbari sığorta növlərinin həyata keçirilməsi zamanı iştirakçıların qarşılıqlı fəaliyyətini təmin etmək, icbari sığorta növləri ilə əlaqədar qanunvericiliyin və təcrübi işin təkmilləşdirilməsi üzrə təkliflər vermək və digər məsələlərin tətbiqi məqsədilə İcbari Sığorta Bürosu yaradılıb. İcbari Sığorta Bürosunun yaranması sığorta bazarının aktivliyini daha da artırıb. Ölkədə fəaliyyət göstərən 28 sığorta şirkətindən 11-i Büroya üzv olub və həmin sığorta şirkətləri icbarı sığorta növləri üzrə fəaliyyət göstərmək icazəsinə malikdirlər.*

Qeyd edək ki, İcbari Sığorta Bürosu öz iştirakçılarına daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası və sərnişinlərin fərdi icbari qəza sığortası növlərini həyata keçirməyə imkan verir.



Büronun qarşısında duran ən vacib vəzifələrdən biri isə icbari sığorta növləri üzrə üçüncü şəxslərə kompensasiya ödənişlərinin verilməsidir. Belə ki, «İcbari sığortalar haqqınd» Qanuna əsasən, əmlaka və sağlamlığa dəyən zərərə görə nəzərdə tutulmuş sığorta ödənişlərinin həyata keçirilməsi bəzi hallarda mümkün olmadıqda, Büro tərəfindən kompensasiya ödənişi verilir. Bunlar sığortaçı müvafiq icbari sığorta müqavilələri üzrə sağlamlığa və ya əmlaka dəyən zərərlə bağlı öhdəliklərini ödəmə qabiliyyətinin olmamasına görə yerinə yetirə bilmədikdə, üçüncü şəxsin sağlamlığına naməlum avtonəqliyyat vasitəsilə zərər vurulduqda və icbari sığorta müqaviləsi mövcud olmayan şəxs tərəfindən avtonəqliyyat vasitəsinin istifadəsi nəticəsində üçüncü şəxsin sağlamlığına zərər vurulduqda baş verir. Yalnız bir şərtlə bu tələbə əməl edilir, - zərərçəkən zərərin əvəzinin ödənilməsi ilə bağlı zərər vurana qarşı tələb irəli sürməsinə baxmayaraq, bu tələb təmin edilməmiş olsun. Kompensasiya ödənişi bu ödənişi tələb etmək hüququna malik olan şəxsin yazılı müraciəti əsasında ödənilir. Kompensasiya ödənişləri müvafiq icbari sığorta növünə dair qanunvericilikdə sığorta ödənişlərinin verilməsi üçün nəzərdə tutulmuş qaydada və məbləğdə həyata keçirilir. Ödənişlərin verilməsi üçün Büronun kompensasiya ödənişləri ehtiyatı kifayət etmədikdə, belə ödənişlər üzrə öhdəliklərin yerinə yetirilməsi məqsədilə Büronun istifadə etdiyi vəsait iştirakçı sığortaçılar tərəfindən ödənilən əlavə haqlar hesabına təmin olunur. Əlavə haqların ödənilməsinə zərurət yarandıqda, bu haqların hər bir konkret hal üzrə ödənilmə üsulu və müddətini sığorta nəzarəti orqanı müəyyən edir.

Kompensasiya ödənişləri, yuxarıda qeyd etdiyimiz kimi, üçüncü şəxslərin sağlamlığına dəyən zərəri qarşılamaq üçün nəzərdə tutulub. Burada sağlamlığa dəyən zərər dedikdə, şəxsin yüngül və yaxud ağır xəsarət alması, şəxsin əmək qabiliyyətinin tam və ya qismən itirilməsi və şəxsin ölümü başa düşülür.

Sağlamlığa dəyən zərər üzrə kompensasiya ödənişləri isə aşağıdakı kimi hesablanır. Zərərçəkənin ölməsi, aldığı bədən xəsarəti, xəstələnməsi, zəhərlənməsi və ya kontuziya olması nəticəsində sığorta hadisəsi baş verdiyi tarixdən 3 il ərzində ölməsi - 5000 manat; zərərçəkənin məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş elan edilməsi - 5000 manat. Yuxarıda sadalananlar nəticəsində sığorta hadisəsi baş verdiyi tarixdən 3 il ərzində ona qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlillik qrupu təyin olunmasına görə kompensasiyanın hesablanması isə I qrup əlilliyə görə 4000 manat, II qrup əlilliyə görə 3000 manat, III qrup əlilliyə görə 2000 manat təşkil edir. Əlillik qrupu təyin olunmadan ağır xəsarətin alması - 1500 manat, yüngül xəsarətin alması isə 250 manat kompensasiya məbləği yaradır.

*Qeyd: Baş vermiş yol-nəqliyyat hadisələri zamanı sağlamlığına zərər dəymiş şəxslərə İcbari Sığorta Bürosunun kompensasiya ödənişlərinə cari ilin aprel ayının 18-dən başlayaraq start verilib. İcbari Sığorta Bürosunun əməkdaşının qəzetimizə verdiyi məlumata görə, aprel ayının 18-dən kompensasiya ödənişlərinə start verilməsinə baxmayaraq, indiyədək Büroya bununla bağlı müraciət daxil olmadığından heç bir ödəniş həyata keçirilməyib.*

**AYTƏN**

qanunçuluq

# Hər kəs öz məsuliyyətini anlamalıdır

## *Lotereyaların və idman mərc oyunlarının qanunsuz təşkili və ya keçirilməsi inzibati və cinayət məsuliyyəti yaradır*

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 30 sentyabr 2011-ci il tarixli, 200-IVQD nömrəli və «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 30 sentyabr 2011-ci il tarixli, 199-IVQD nömrəli qanunları ilə müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (İXM) və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (CM) bir sıra maddələr əlavə edilmişdir. Qeyd edilən qanunlar qüvvəyə mindikdən sonra lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən təşkili və ya keçirilməsi, qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsi İXM-in 199-3-cü maddəsinə müvafiq olaraq inzibati məsuliyyətə, həmçinin bu əməllər vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə CM-in 192-1-ci maddəsinə müvafiq olaraq cinayət məsuliyyətinə səbəb olur. Burada «xeyli miqdar» dedikdə, min manatdan yeddi min manatadək olan məbləğ başa düşülür.

Lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən təşkili və ya keçirilməsi, qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsi təkrar törədildikdə, vətəndaşlara, təşkilatlara və ya dövlətə külli miqdarda ziyan vurulduqda, habelə külli miqdarda gəlir əldə etməklə törədildikdə, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə ağırlaşdırıcı hal hesab edilir və daha ağır cəzaya səbəb olur - cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç misli miqdarında cərimə və ya bir ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Burada «külli miqdar» dedikdə isə yeddi min manatdan artıq olan məbləğ başa düşülür.

Qeyd edilənlərlə yanaşı, həmçinin qumar oyununda iştirak etmək də inzibati məsuliyyət yaradır. Belə ki, qumar oyununda iştirak etmək, yəni qumar oynamağa görə oyun ləvazimatı, habelə qumara qoyulmuş pul vəsaitləri və ya digər əmlak müsadirə edilməklə fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək cərimə edilir. Bildiririk ki, «qumar oyunu» dedikdə pul vəsaitləri, maddi və sair nemət (uduş) əldə etmək məqsədilə oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyun başa düşülür.

Lakin qumarxana, yəni qumar oyunlarının keçirilməsi üçün yer təşkil etmək və ya saxlamaq cinayət məsuliyyətinə səbəb olur və iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər təkrar törədildikdə, həmçinin qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə daha ağır cəzaya səbəb olur, yəni üç ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Sonda onu da qeyd edək ki, qanunla müəyyən edilmiş qaydada keçirilən lotereya və idman mərc oyunlarına İXM-in və CM-in müvafiq maddələrinin qüvvəsi şamil edilmir.

**Hüquq idarəsi**



Qulu Soltanov, sərbəst auditor

## Mühasibat

# Amortizasiya, onun mühasibat və vergi uçotu üzrə təhlili

Hörmətli oxucular, bildirmək istəyirik ki, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi www.maliyye.gov.az elektron saytında MMUS-lar üzrə Tövsiyələr və Şərhlər yerləşdirilmiş və mühasiblər yeni standartlar üzrə uçot tələbləri ilə tanış ola bilərlər. Bizim məqsədimiz isə ənənəvi uçot tələbləri ilə zənginləşmiş düşüncəyə və bilgilərə malik mühasiblərə müqayisəli təhlilləri çatdırmaq və sadə yollarla yeni tələblərə transferi asanlaşdırmaqdır. Ona görə də bizim izahlarda sadə və praktik təhlillərə üstünlük veriləcəkdir.

MMUS-lar üzrə torpaq, tikili, avadanlıq, nəqliyyat vasitəsi və bu sinfə aid digər uzunmüddətli aktivlər alınaraq mühasibat uçotunda mədaxil edilərkən mühasiblərin bilməli olduqları aşağıda göstərilən məsələlər həll olunmalıdır:

1. «Torpaq, tikili və avadanlıqlar» sinfinə aid olan uzunmüddətli aktivlərin qruplar üzrə bölüşdürülməsi, yəni aktivin tikili, avadanlıq, nəqliyyat vasitəsi, ehtiyat hissə və ya hansı digər qrupa aid edildiyi bəlli olmalıdır.
2. Aktiv qiymətləndirilməlidir, yəni uçota alınması üçün mədaxil dəyəri hesablanmalıdır.
3. Aktivin faydalı istismar müddəti təyin olunmalıdır.
4. Akivin son qalıq dəyəri təyin olunmalıdır.
5. Amortizasiya metodu təyin olunmalıdır.
6. Aktiv istismara qəbul edilməlidir.

Göstərilən bütün məsələlər (prosedurlar) başa çatdıqdan sonra müəssisənin mühasibi həmin aktivin uçotda əks etdirilməsini həyata keçirir.

Mühasibat uçotu üzrə torpaq, tikili və ya avadanlıq obyekti tanındığı zaman onun dəyəri birbaşa balans hesabatında «torpaq, tikili və avadanlıqlar - dəyər» (hesab №111) hesabının debetinə və eyni zamanda «malsanat və podratçılara qısamüddətli kreditor borcları» (hesab №531) hesabının kreditinə ikili yazılış edilir.

Şərhlər və Tövsiyələrdə göstərilir ki, amortizasiya - uzunmüddətli aktivin tam dəyərinin onun istismara yararlı müddətdə mənfəət və zərər haqqında hesabatda əks etdirilməsi məqsədilə həmin aktivin dəyərinin faydalı istismar müddəti üzrə müntəzəm olaraq (sistematik) paylaşdırılması (bölüşdürülməsi) prosesidir. Uzunmüddətli aktiv köhnəldikcə cari ilin amortizasiyası əvvəlki illərin amortizasiyasına əlavə olunur və alınan ümumi məbləğ yığılmış amortizasiya adlandırılır. Aktivin ilkin dəyərindən yığılmış amortizasiyanın çıxılması nəticəsində onun ilin sonuna olan balans dəyəri alınır.

Yuxarıda göstərilən təyinatlar müəyyənləşdirildikdən sonra bütün bunlar barədə mühasib rəsmi məlumatlandırılmalıdır. Müəssisələrdə yuxarıda göstərilən təyinatların həll olunması üçün müvafiq vəzifələri daşıyan məsul şəxslər işləyə bilər. Kiçik sahibkarlıq subyektlərində adətən bu məsələləri sahibkar (mülkiyyətiçi) özü təyin edir və mühasibi varsa, onu rəsmi qaydada məlumatlandırır. Mühasib də həmin məlumatlar əsasında aktivin analitik uçotunu həyata keçirir. Orta və iri sahibkarlıq sübyektlərində isə bu təyinatların bəziləri uçot siyasətində öz əksinin tapır, bəzilərinin isə həll olunması üçün müəssisələrin daimi fəaliyyət göstərən konkret komissiyaları və ya işləyən vəzifəli şəxsləri olur. Məsələn, aktivin kateqoriya üzrə qruplaşdırılması, aktiv üçün tətbiq olunan amortizasiya metodu uçot siyasətində əks olunsa da, xüsusi mülahizələr və rəylər əsasında aktivin qiymətləndirilməsi nəticəsində dəyərinin tapılması, faydalı istismar müddəti və son qalıq dəyərinin təyin olunması, aktivin istismara qəbul edilməsi konkret müəyyən olunmuş vəzifəli şəxslər tərəfindən həyata keçirilir. Bu proseslərdə mühasib də iştirak edə və vəzifələr daşıya bilər.

**1. «Torpaq, tikili və avadanlıqlar» sinfinə aid olan uzunmüddətli aktivlərin qruplar üzrə bölüşdürülməsi.**

«Torpaq, tikili və avadnlıqlar» sinfinə aid olan uzunmüddətli aktivləri aşağıda göstərilən kateqoriyalar üzrə bölüşdürmək olar:

- Torpaq sahəsi
- Binalar, digər tikililər, qurğular
- İstehsal maşınları və avadanlıqları
- Nəqliyyat vasitələri
- İnventarlar (mebel)
- Uzunmüddətli ehtiyat hissələr
- Tikilməkdə olan obyektlər.

Mühasib göstərilən qrupların tərkibinə daxil olan aktivlərin xarakterini, parametrlərini, xassələrini, mahiyyətini və digər əlamətlərini mükəmməl bilməlidir. Ənənəvi uçotla işləyən mühasiblər həmin kateqoriyalar barədə kifayət qədər məlumatlıdırlar. Lakin yeni uçotda əvvəlki uçot qaydalarından fərqli bəzi yanaşmalar vardır. Məsələn:

- 7№-li Standartın 8-ci maddəsinə görə, iribuynuzlu mal-qara, qoyun, ev quşları və böyüməkdə olan bitkilər, investisiya mülkiyyəti, yeraltı sərvətlər və faydalı qazıntılar «Torpaq, tikili və avadanlıqlar» kimi təsnifləşdirilə bilməz. Ənənəvi uçotda bunlar yuxarıda göstərdiyimiz aktivlərlə birlikdə 01№-li hesabda uçotda əks etdirilirdi.

- Müəssisəyə alınan hər hansı uzunmüddətli aktiv, məsələn, tikili, avadanlıq, nəqliyyat vasitəsi və digərləri «torpaq, tikili və avadanlıqlar» sinfində uçota alındıqdan və müəyyən dövr istifadə edildikdən sonra satış üçün nəzərdə tutularsa, «torpaq, tikili və avadanlıqlar» sinfindən, yəni 111№-li hesabdan çıxarılmalı və 206 №-li hesabda yerləşdirilməlidir. Ənənəvi uçotda isə satış birbaşa aktivin ilk dəfə uçota alınan hesabından, yəni 01№-li hesabdan silinməsi ilə həyata keçirilirdi.

- MMUS-a görə «torpaq, tikili və avadanlıqlar» kimi təsnifləşdiriləcək aktivin dəyərinin həddi meyar kimi nəzərə alınmır. Əsas odur ki, dövriyyədən kənar maddi aktivlər olaraq, müəssisə tərəfindən istehsalda və ya mal-materialların çatdırılması və ya xidmətlərin göstərilməsində istifadə edilməsi, digər tərəflərə icarəyə verilməsi və ya inzibati məqsədlər üçün saxlanılması nəzərdə tutulsun. Həmçinin, 1№-li Standartın 50-ci maddəsinin tələblərindən kənar olmalı, yəni aktivdən müəssisənin normal əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanılması, əsasən alqı-satqı məqsədləri üçün və ya qısa müddət ərzində saxlanılması nəzərdə tutulmasın və onların hesabat tarixindən 12 ay müddətində pul və ya pul ekvivalentlərinə çevrilməsi ehtimal olunmasın. Deməli, ənənəvi uçotda 12№-li hesabda uçota aldığımız bəzi azqiymətli əşyalar, məsələn, 85,0 manat dəyərində alınmış printer yeni uçotda «Torpaq, tikili və avadanlıqlar» kimi təsnifləşdirilməli və avadanlıqlar qrupuna aid edilməlidir.

- «Torpaq, tikili və avadanlıqlar» kimi təsnifləşdirilməsi nəzərdə tutulan tikililər hələ tikilib başa çatdırılana qədər başa çatdırılmamış tikinti kimi, həmçinin, aktiv alınarkən hələ quraşdırılası avadanlıq kimi başqa hesabda deyil, məhz 111№-li hesabda müvafiq kateqoriyada uçota alınır. Ənənəvi uçotda isə bunlar 08№-li və 07№-li hesabda uçota alınırdı.

***Davamı növbəti sayımızda***

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | |

vergi təqvimi

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**15 may** - «(5)», «6».
**21 may** - «3», «4», «8», «10.1», «10.2» və «10.3»

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

xarici ölkələrdən vergi xəbərləri

## ABŞ büdcəsinin profisiti aprel ayında $59,12 mlrd. təşkil etmişdir

**ABŞ Maliyyə Nazirliyinin aylıq hesabatında qeyd edildiyi kimi, ölkədə əvvəlki üç ay ilə müqayisədə apreldə vergi daxilolmaları xərclərdən artıq olmuşdur.**

Ölkədə vergi daxilolmalarının artması, xərclərin isə azalması hələ də böyük məbləğdə olan büdcə kəsirinin nisbi azalmasına səbəb olmuşdur.

Qeyd edək ki, aprel - Amerikada oktyabrın 1-dən başlayan maliyyə ilinin yeddinci ayıdır. Oktyabrdan aprelin sonunadək fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar 662,71 mlrd. dollar təşkil etmişdir ki, bu da keçən maliyyə ilinin müvafiq dövrü ilə müqayisədə 4%-dən çox artım deməkdir (həmin dövrə aid rəqəm 631,16 mlrd. dollar olmuşdu). Korporasiyaların mənfəət vergisi isə bir il əvvəlki göstəricidən - 80,13 mlrd. dollardan 112,32 mlrd. dollara çatmışdır.

Bu müsbət göstəricilərə baxmayaraq, Konqresin Büdcə idarəsi 2012-ci ildə ölkənin maliyyə kəsirinin ümumilikdə 1,2 trilyon dollar olacağını proqnozlaşdırır ki, bu da büdcə kəsirinin dörd il dalbadal bir trilyon dollardan yüksək olması deməkdir.

## Rusiya hökuməti offşor şirkətlərinə qarşı

Rusiya hökuməti 2015-ci ilə qədər «Vergi siyasətinin əsas istiqamətləri»ni təsdiqləmişdir. Bu sənəddə Maliyyə Nazirliyinin offşor şirkətlərinin Rusiyada öz biznesini qeydiyyata aldırması hesabına vergilərin ən çox yayılmış sxemlərindən istifadə olunmasının qarşısını almaq üçün yeni təşəbbüsü öz əksini tapmışdır. İrəli sürülən təkliflərə əsasən, özünün Rusiyadakı sahibinə dividend ödəməyən offşor şirkətləri Rusiya büdcəsinə vergi ödəməlidir. Bu zaman şirkətin son benefisiarı haqqında informasiyanı gizlətməsi qanun pozuntusu hesab ediləcək. Hazırda Rusiyanın Mərkəzi Bankı tərəfindən offşor şirkətlərinin fəaliyyətinə nəzarət məqsədilə oxşar yanaşmadan istifadə edilir. Ekspertlərin fikrincə, Maliyyə Nazirliyi offşor şirkətlərindən Rusiyada vergidən yayınmaq üçün istifadə olunmasına iqtisadi baxımdan əlverişsiz şərait yaratmağa çalışır, lakin nazirliyin irəli sürdüyü planın səmərəli olacağı o qədər də inandırıcı görünmür. Hər bir şirkətin özündən əvvəlki şirkətin təsisçisi olduğu offşor «zəncirinin» mövcud olduğu şəraitdə sonuncu benefisiarın kim olduğunu müəyyənləşdirmək son dərəcə çətindir. Bundan əlavə, ekspertlər yeni təşəbbüsün xarici investorları cəlb etməyə mane olacağından, eləcə də Rusiyadan kapital axınına təkan verəcəyindən ehtiyat edirlər.

idman xəbərləri

# Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velotura yekun vurulmuşdur

*Mayın 13-də Bakının Azadlıq meydanında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velotura yekun vurulmuşdur. Mayın 9-da başlayan veloturun sonuncu günündə beşinci mərhələnin yarışları keçirilmişdir. Pelaton 123 kilometr məsafə qət etmişdir. Belə ki, hər idmançı 12,3 kilometrlik marşrut üzrə 10 dəfə dövrə vurmuşdur.*



Maraqlı idman mübarizəsi şəraitində keçən turnirdə qazaxıstanlı Hurbolat Kulimbetov 2 saat 57 dəqiqə 16 saniyə göstərici ilə qalib gəlmişdir. Rusiya idmançısı Gennadi Tatarninov ikinci, kot`de vuarlı velosipedçi İssiaka Çisse isə üçüncü olmuşdur. Ümumi komanda hesabında Rusiyanın «İtera Katyuşa» klubu birinci pillədə qərarlaşmışdır.

Sprint yarışında Maksim Vasilyev (Ukrayna), dağlıq ərazidə yürüş zamanı göstəricilərinə görə Bəxtiyar Kozatayev (Qazaxıstan) qalib gəlmişlər. Beş günün nəticəsinə əsasən əlcəzairli Yusif Regigi rəqiblərindən üstün olmuş, Tural İsgəndərov isə ən yaxşı Azərbaycan idmançısı seçilmişdir.

Yarış başa çatdıqdan sonra «Hilton Bakı» mehmanxanasında mətbuat konfransı keçirilmişdir. Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) prezidenti Fazil Məmmədov bu cür yarışın ölkəmizdə ilk dəfə təşkil olunduğunu, veloturun yüksək səviyyədə keçirilməsində Azərbaycan hökumətinin dəstəyini yüksək qiymətləndirmiş və turnirin əhəmiyyətindən danışmışdır. Fazil Məmmədov analoji yarışın ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü çərçivəsində də təşkil olunacağını diqqətə çatdırmış və bu istiqamətdə Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) ilə danışıqlar aparıldığını söyləmişdir. O demişdir ki, UCI rəhbərliyi ölkəmizdə keçirilən yarışın yüksək səviyyədə təşkil olunmasından razı qalmışdır və Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir.

Növbəti ildə veloturda iştirak edəcək ölkə və idmançıların sayının artacağı gözlənilir. Ölkəmizdə beynəlxalq yarışların keçirilməsi üçün lazımi infrastrukturun olduğunu bildirən AVİF-nin rəhbəri bütün bunların ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının əyani sübutu olduğunu demişdir.

UCI-nin prezidenti Patrik Mak Quayd Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını, beynəlxalq idman təşkilatları üçün ölkəmizin etibarlı tərəfdaş olduğunu xüsusi vurğulamış, veloturun əhəmiyyətindən danışmışdır. O, turnirin yüksək səviyyədə təşkil olunduğuna görə ölkə rəhbərliyinə və AVİF-yə təşəkkürünü bildirmişdir. Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyev ilə görüşdüyün bildirən P.Mak Quayd ölkə başçısı ilə idmanın bu növünün respublikamızda inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparıldığını diqqətə çatdırmışdır.

Mətbuat konfransında bildirilmişdir ki, ölkəmizdə məşhur «Tour de France», «Giro de Italia» kimi «Tour de Azerbaijan»ın keçirilməsi nəzərdə tutulur. Bu turnirin keçirilməsi üçün hər cür şəraitin olduğu və yarışın marşrutunun hər il dəyişdiriləcəyi vurğulanmışdır.

Qeyd edək ki, turnirin ilk günü qadınların şəxsi yarışında Azərbaycan idmançısı Yelena Çalıx, kişilər arasında birinci mərhələdə Rusiyanın «İtera Katyuşa» klubu qələbə qazanmışdı. Turnirin ikinci mərhələsində ispaniyalı Dieqo Rubio Ernandes, üçüncü mərhələdə rusiyalı Dmitri Vernidub və növbəti mərhələdə isə Gennadi Tatarinov (Rusiya) qələbə qazanmışlar.

Bütövlükdə 5 mərhələnin yekununa görə, Əlcəzair idmançısı Yusif Regigi liderliyi qoruyub saxlamışdır

# Sərbəst güləşçilərimiz Dünya Kuboku uğrunda yarışda gümüş medal qazanmışlar

Mayın 12-dən 13-dək Bakıdakı «Sərhədçi» Olimpiya İdman Kompleksində sərbəst güləş üzrə Dünya Kuboku yarışları keçirilmişdir. Yarışın təntənəli açılış mərasimi Azərbaycanın son illərdə «Avroviziya» mahnı müsabiqəsində təmsil etmiş ifaçıların maraqlı çıxışları ilə başlamışdır.

Daha sonra mərasimdə çıxış edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində ölkədə idmanın bütün növlərinin, o cümlədən güləşin sürətlə inkişaf etdiyini demişdir. Nazir müavini Azərbaycan güləşçilərinin Londonda keçiriləcək Yay Olimpiya Oyunlarına 13 lisenziya qazandıqlarını da razılıqla vurğulamışdır.

FİLA prezidenti Rafael Martinetti Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını, beynəlxalq idman təşkilatları üçün ölkəmizin etibarlı tərəfdaş olduğunu bildirmiş, Dünya Kuboku yarışının əhəmiyyətini qeyd etmişdir. R.Martinetti yüksək təşkilatçılığa görə ölkə



rəhbərliyinə və Güləş Federasiyasına təşəkkürünü bildirmişdir.

Azərbaycan Güləş Federasiyasının I vitse-prezidenti Namiq Əliyev sərbəst güləş üzrə böyüklər arasında Dünya Kuboku yarışının iştirakçılarını salamlamış, mötəbər turnirin təşkilini ölkəmizə etibar etdiyinə görə FİLA rəhbərliyinə təşəkkürünü bildirmişdir. N.Əliyev bu yarışın Bakıda keçirilməsinin ölkəmiz üçün müstəsna əhəmiyyətindən danışaraq idmançılara uğurlar arzulamışdır.

İki gün davam edən yarışda idmançılar 2 qrupda mübarizə aparmışlar: A qrupunda Rusiya, Bolqarıstan, Belarus, Qazaxıstan, Azərbaycan, B qrupunda isə İran, Türkiyə, ABŞ, Yaponiya və Gürcüstan milliləri yer almışlar.

Millimiz ilk görüşünü mayın 12-də Rusiya komandasına qarşı keçirmişdir. Yarışda Mahmud Maqomedov (55 kq, Azərbaycan) Sanna Artsa (Rusiya), Hacı Əliyev (60 kq) Aleksandr Baqmayevə, Cəbrayıl Həsənov (66 kq) Rəsul Murtuzəliyevə, Əşrəf Əliyev (74 kq) Ramazan Şamsudinova, Şərif Şərifov (84 kq) Maqomed İbrahimova, Xetaq Qazyumov (96 kq) Şamil Əhmədova, Cəmaləddin Maqomedov (120 kq) Məhəmmədhacı Nurasulova qalib gəlmişlər. Beləliklə, görüş 7:0 hesabı ilə güləşçilərimizin xeyrinə başa çatmışdır.

Yığmamız növbəti görüşünü Bolqarıstan idmançılarına qarşı keçirmişdir. Qarşılaşmada M.Maqomedov (55 kq, Azərbaycan) Mehmet Ferahimdən (Bolqarıstan), Ağahüseyn Mustafayev (60 kq) Vladimir Dubovdan, Aleksandr Qostiyev (74 kq) İvan Deliverskidən, X.Qazyumov (96 kq) Georgi Sredkovdan, C.Maqomedov (120 kq) isə Dmitri Tunçevdən üstün olmuşlar. C.Həsənov və Ş.Şərifovun rəqibləri xalça üzərinə çıxmamışlar. Bu görüşdə də millimiz 7:0 hesablı qələbə qazanmışdır.

Mayın 13-də Qazaxıstan (7:0) və Belarus (6:1) yığmalarına da inamla qalib gələn güləşçilərimiz finala vəsiqə qazanmışlar. B qrupunda isə İran millisi rəqiblərindən daha güclü olduğunu nümayiş etdirərək, finala çıxmışdır. Beləliklə, həlledici görüş Azərbaycan güləşçiləri ilə İran millisi arasında keçirilmişdir. Güləşçilərimiz 3:4 hesabı ilə məğlub olaraq Dünya Kuboku yarışlarının gümüş medalını qazanmışlar. ABŞ millisi isə yarışda üçüncü olmuşdur.

krossvord




**Soldan sağa:** 1.Gavalı cinsinə aid giləmeyvə; 3.Bilik mənbəyi; 5.Yunan mifologiyasında əkinçilik və bərəkət tanrısı; 7.Azərbaycanlı rejissor, ssenarist, kinooperator və prodüser (adı); 10.Günəş sistemində 4-cü planet; 11.Milli simli musiqi aləti; 12.Yer kürəsinin böyük quru massivi; 15.Azərbaycanlı caz musiqiçisi, müğənni, «Bəri bax» kollektivinin solistinin adı; 18.Elm və incəsənətdə digər müəllifin yaradıcılığının, ideyasının şüurlu surətdə mənimsənilməsi; 19.Dünyanın əşrəfi hesab edilən varlıq; 20.Ayıkimilər fəsiləsinə aid məməli heyvan növü. **Yuxarıdan aşağı:** 1.Məhsulun və ya xidmətin satışından əldə olunan vəsait; 2.«Brınza» adı ilə tanınan yunan pendiri; 3.Kisəli ayılar fəsiləsinə aid heyvan növü; 4.Pişikkimilər fəsiləsinin panter cinsinə aid heyvan növü; 6.Qərb yarımkürəsində qitə; 8.Qədim Roma mifologiyasında bəxt allahı. Çox zaman rəsmlərdə gözübağlı və ayaqları altında təkər təsvir olunur; 9.Quruda özünün əmələ gətirdiyi yataq üzrə hərəkət edən su axını; 13.Səməd Vurğunun poemasının qəhrəmanı, məşhur pambıqçı qadın; 14.Dünya şöhrətli polşalı klassik musiqi bəstəkarı və pianoçu; 16.Qitələrdən biri; 17.Rəng.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa:** 4.Arxipelaq; 6.Karib; 9.Səbəb; 10.Eos; 14.Bax; 15.Polad; 17.Menzurka; 18.Luçano; 19.Bitlz; 20.Gümüş; 22.Rafiq; 27.Ataraksiya; 29.Abba; 30.Altruizm; 31.Aralıq. **Yuxarıdan aşağı:** 1.Transformator; 2.Zevs; 3.Zaur; 5.İdman; 7.Bethoven; 8.Hera; 11.Filologiya; 12.Karuzo; 13.Ud; 15.Platin; 16.Nəbz; 21.Civə; 23.Ada; 24.Şir; 25.Saz; 26.Kata; 28.Rauf.

Vergilər Nazirliyinin kollektivi 2 saylı ƏVİ-nin əməkdaşı
Zakir Kazımova, anası
**Pərvanə xanımın**
vəfatından kədərləndiyini bildirir və
dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi 2 saylı ƏVİ-nin əməkdaşı
İlham Zülfüqarova, babası
**İsmayıl kişinin**
vəfatından kədərləndiyini bildirir və
dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h 12-12258-1
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
**Ünvan:** AZ 1073, Bakı ş., Landau küç.16

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.
**Tiraj: 16000**

# Göygöl

sarvatlarimiz

«Yanlış da bir naxışdır» desək də, yanlış çox nadir hallarda naxışa çevrilir - istər insan əməlində, istərsə də təbiət hadisələrində. Təbiətin tarix boyunca naxışa çevrilmiş nadir yanlışlarından biri də bizim torpağımızın payına düşüb. Yer üzünün ən mənzərəli guşələrindən olan Göygöl Kəpəz dağını yerindən oynadan güclü zəlzələnin yadigarıdır: 1139-cu ildə Gəncə yaxınlığında baş vermiş güclü zəlzələ nəticəsində Kəpəz dağı uçaraq dərə uzunu axan Ağsu çayının qarşısını kəsib. Çay öz yatağı ilə axa bilmədiyinə görə, dağ bulaqlarından gələn su burada toplanaraq füsunkar gözəlliyi, xüsusilə də suyunun şəffaflığı ilə heyrətamiz bir mənzərə yaradan məşhur Göygöl yaranıb. Dəniz səviyyəsindən 1556 metr yüksəklikdə yerləşən Göygölün uzunluğu 2800 metrdir. Gölün eni 800 metrdən 1000 metrə qədərdir, ən dərin nöqtəsi isə 96 metrə çatır. Göygölün suyu duru olduğuna görə, 8-10 metrə qədər dərinliyi gözlə görmək mümkündür...



Dağlar qoynunda qərar tutan Göygölün ətrafındakı ərazinin bitki və heyvanlar aləmi olduqca zəngindir. Göldə qorunmaqda olan nadir forel balıqları yaşayır. Onu da qeyd edək ki, mənşə etibarilə axar çay balığı olan Göygöl foreli Azərbaycanın digər çaylarında yaşayan forellərdən xeyli fərqlənir. Burada rast gəldiyimiz forel balığının əmələgəlmə tarixi Göygölün yaranma tarixi ilə bağlıdır. Zəlzələ zamanı gölün ərazisində qalan çay forelləri uzun illər ərzində təkamülə uğrayaraq tədricən göl forelinə çevrilmiş, artıb-çoxalmış və zəmanəmizə qədər gəlib çatmışdır.

Gölü əhatə edən Göygöl Dövlət Təbiət Qoruğu 1925-ci ildə Azərbaycanda yaradılmış ilk qoruqdur. Göygöl və onun ətrafının meşə landşaftı öz təbiət zənginliyi və füsunkarlığı ilə dünyada özünəməxsus yer tutur. Qoruğun ümumi ərazisi 6732 hektardır. Qoruqda 423 növ ağac və kol, dərman bitkiləri bitir. Bu ərazidə Qafqaz maralı, cüyür, ayı, çöl qabanı, dağ keçisi, canavar, tülkü, çaqqal, porsuq, oxatan kirpi, çöl pişiyi, vaşaq kimi əksəriyyətinin adı «Qırmızı kitab»a düşmüş nadir canlılar məskən salıb.

# Romantizm rəssamlığı

şedevrlar



*Fransisko Qoyya. «Öküz döyüşü».*

Romantizm (fransızca romantisme) 18-19-cu əsrin əvvəllərində Avropa və Amerika mədəniyyətində mövcud olan ideya və bədii düşüncə hərəkatı idi. Bu hərəkat 20-ci əsrin əvvəllərində Azərbaycan mədəniyyətində (xüsusilə ədəbiyyatda) də qabarıq şəkildə təzahür etmişdir. Romantizm şəxsiyyətin nəhayətsiz azadlığını, kamilləşmə və yeniləşmə ehtiraslarını, fərdi və vətəndaş azadlıqlarını tərənnüm edirdi. İdealın və varlığın əzabverici məhvi romantizm dünyagörüşünün əsasını təşkil edir: romantiklər insanın yaradıcı və mənəvi dəyərlərini təsdiq etməyə, güclü ehtirasları təsvir etməyə, təbiətin dirçəlişinə üstünlük verir, bu keyfiyyətləri insanın və cəmiyyətin təbiətinin qaranlıq tərəfləri ilə təzadda təqdim edirdilər. Romantiklər ali ilə alçağı, ülvilik ilə eybəcərliyi, faciəviliklə komizmi, reallıqla fantastikanı bir araya gətirir, müqayisə edirdilər. Realizm hər bir ölkənin mədəniyyətində milli keyfiyyətlər kəsb edidi.

Romantik məktəb Fransa rəssamlığında daha ardıcıl bir xarakter almışdır: burada rəssamlar təsvir vasitələrini təkmilləşdirərək kompozisiyanı daha hərəkətli vəziyyətə gətirir, formanı hərəkətlə birləşdirir, parlaq milli kaloritdən istifadə edirlər.

Hazırda romantik rəssamlığın nümayəndələrindən Fransisko Qoyya (1746-1828) daha çox xatırlanmaqdadır. İspan xalqının Fransa işğalçılarına qarşı apardığı azadlıq mübarizəsi Qoyyanın yaradıcılığında parlaq şəkildə əks edilmişdir. Onun «Gülləbaran» adlı məşhur tablosunda ispan üsyançılarının fransız əsgərləri tərəfindən güllələnməsi təsvir edilir. Qoyya, həmçinin, mahir portretçi olmuşdur. Onun «Hersoginya Alba», «İzabella de Porsel», «Rəssam Bayeu» və başqa portretləri çox yüksək sənətkarlıq nümunələridir. İspan kralı IV Karlın ailəsi ilə birgə portretində Qoyya hökmdarın və arvadının mənəvi eybəcərliyini, daxili puçluğunu və lovğalığını kəskin surətdə ifşa etməkdən çəkinməmişdir. Sadə ispan qızı «Maxa»nın surətində isə milli gözəlliyin timsalı çox güclü təsir bağışlayır.

Qoyyanın azadlıq mübarizəsinə həsr etdiyi əsərləri arasında «Dəhşət» adlı qrafik silsilə xüsusi yer tutur. 82 ofortdan ibarət bu əsərdə realistcəsinə və yüksək sənətkarlıqla bir tərəfdən yadellilərə qarşı mübarizə tərənnüm edilir, digər tərəfdən isə hakim təbəqələrin satqınlığı və qorxaqlığı ifşa və tənqid olunur.

# Göylərə baş çəkən süni meşə

möcüzələr

Sinqapurda göydələnlərə üstdən baxan süni bir meşə salınmaqdadır. 50 metr yüksəkliyində olan bu meşənin turistlər üçün cazibə mərkəzi olacağı gözlənilir. İyunun 29-da işıq və səs effektləri ilə açılışı həyata keçiriləcək süni meşədə ziyarətçilər asma körpülərdən qurulmuş piyada yolu üzərində gəzərək Sinqapuru yüksəklikdən seyr edəcəklər. Piyada gəzinti yolu yerdən 22 metr, iki «super ağac» isə 42 metr yüksəklikdə inşa edilir. Yüzlərlə ton ağırlığında süni ağacların hazırlanmasında polad qəfəslərdən və minlərlə qalın trosdan istifadə edilir.

Bu obyektin memarları yeddi ağaca günəş panelləri əlavə etməyi və meşəni həmin panellərin hasil edəcəyi günəş enerjisi ilə işıqlandırmağı planlaşdırırlar.



Ağacların içinə isə dünyanın müxtəlif yerlərindən gətirilən bitkilər yerləşdiriləcək. Sinqapurun milli rəmzi olacaq bu meşənin açılışına həsr edilən təbrik mərasimləri iyulun 2-dək davam edəcək.

# Beynəlxalq Ailə Günü

söz vaxtına çakar



Dünən bütün dünya ailə gününü qeyd etdi. BMT-nin Baş Assambleyası tərəfindən 1994-cü il mayın 15-də Beynəlxalq «Ailə Gününün təsis edilməsində əsas məqsəd dünya ictimaiyyətinin diqqətini müasir ailə ilə bağlı problemlərə cəlb etmək idi. Bununla beynəlxalq səviyyədə ailələr, onların rifahı, ailənin risk altına düşməsinin qarşısının alınması, həyat şəraitinin yaxşılaşdırılması kimi məsələləri gündəliyə gətirmək nəzərdə tutulmuşdu.

Müasir dünyada hər ailənin özünəməxsus problemləri vardır: ailənin ən aktual problemləri özünü, əsasən, cəmiyyətin kəskin sosial-iqtisadi təbəqələşməsində, ailə büdcələrinin yetərsizliyində, arzuolunmaz miqrasiyada, ailənin sağlamlıq vəziyyətinin pisləşməsində, əhalinin sayının azalmasında təzahür edən demoqrafik situasiyada, ailədə qadınların rolunun köklü şəkildə dəyişməsində, natamam ailələrin sayca artmasında, başqasının hesabına yaşama əmsalının çoxalmasında, ailədaxili zorakılıqda, sosial tənhalıqda və s. göstərir.

Sosial-iqtisadi vəziyyətin acınacaqlı olması ailədaxili münaqişələrə gətirib çıxarır və təbii ki, dünyada qəbul olunmuş ailələrin gücləndirilməsi proqramları məhz bu ilk riski aradan qaldırmağa istiqamətlənir. Heç şübhəsiz ki, ailənin yaşadığı ciddi problemlər uşaqların həyatında daha dərin iz buraxır və bəşəriyyətin gələcəyi bügünkü problemlərin daşıyıcısına çevrilmiş olur. Ona görə də Beynəlxalq Ailə Gününün əsas mövzularından biri də uşaqlardır...

Azərbaycan dünyanın ayrılmaz bir parçası olduğuna görə, beynəlxalq səviyyədə ailələrə xas olan bir sıra problemləri, təbii ki, Azərbaycan ailələri də yaşayır. Ancaq Azərbaycan ailələrinin yaşadığı elə problem də var ki, həmin problemi dünyanın yaxından hiss və dərk etməsinə böyük ehtiyac var: erməni işğalı ilə bağlı 1 milyonadək Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün şəraitində yaşaması, hər şeydən öncə, ailələr üçün problem yaradır. Bu, maddi problem olmaqdan daha çox mənəvi amillərlə şərtlənən hadisədir. Ona görə də bütün dünyanın nəzərlərini xüsusi olaraq qaçqın ailələrə yönəltməsi beynəlxalq insan hüquqları baxımından daha faydalı olardı...

# Xiyar

sağlam hayat tarzi

***Süfrələrimizdə xiyarın xüsusi yeri var. Xüsusilə indi - torpaqda təbii üsulla əkilib-becərilən xiyarın, necə deyərlər, sütül vaxtında. Bəs xiyarın insan orqanizmi üçün faydaları barədə nə bilirik?***

Müasir təbabətdə «sağlamlıq möcüzəsi» adlandırılan xiyarın tərkibində 94-96% su, 1,8-2,5% şəkər, 0,6% azotlu maddə, 0,5% sellüloz, 0,2% üzvi turşular, 0,38-0,53% mineral maddələr, 4-10 mq% C vitamini, az miqdarda B1, B2, PP, karotin, biotin və pantoten turşusu, eləcə də bol mineral maddələr vardır. Xiyar toxumlarının tərkibində 30%-ə qədər zülallı maddələr və 31,5% yağ olur. Bu maddələr qələvilik xassəsinə malik olduğundan, başqa məhsullarla orqanizmə daxil olmuş zərərli turşuların neytrallaşmasına kömək edir. Xiyar bədəni su ilə təmin edir. Qan təzyiqini azaldır və susuzluğu aradan qaldırır.

Xiyar bağırsaqları yumşaldır və qəbizliyi aradan qaldırır. Babasil xəstəliyindən əziyyət çəkənlər üçün faydalı qida sayılır. Qanda xolesterolu aşağı salan xiyar ürək və damar xəstəliklərinə, xüsusi olaraq infeksiyalara qarşı insan orqanizminin müqavimətini artırır.

Xiyar bədəndəki tər vəzlərinin düzgün fəaliyyət göstərməsinə kömək edir. Sidikqovucu xassəyə malik olması sayəsində xiyar bədəndəki şlaqları və duzları xaric edir.



**Ləkə və çillər üçün maska:**

***Lazım olanlar:***
- *2 yemək qaşığı qatıq*
- *yarım limon suyu*
- *yarım yemək qaşığı xiyar suyu*

Bunları yaxşıca qarışdırandan sonra göz çevrəsinə və dodaq kənarına yaxınlaşdırmadan üzünüzə sürtün. 20 dəqiqə saxlayandan sonra üzünüzü ılıq su ilə yaxalayın. Bu maskadan həftədə üç dəfə istifadə etmək məsləhət görülür.

Baş ağrısından qurtulmaq üçün yatağa girməzdən öncə bir neçə dilim xiyar yemək məsləhət görülür - səhər gümrah və başağrısız oyanacaqsınız.

Özünüzü gərgin və yorğun hiss etdiyiniz hallarda bir xiyarı nazik dilimləyib bir tas qaynar suyun içinə atın. Tası otaqda uyğun bir yerə qoyun. Xiyarın tərkibindəki kimyəvi maddələr qaynar suyun buxarı ilə birlikdə ətrafa yayılaraq zərif qoxu yaradacaq. Bu xoş ətir bütün gərginliyinizi götürərək sizi gümrahlaşdıracaq. Xüsusilə bu, imtahana hazırlaşan tələbələr üçün çox faydalıdır.

Yemək yeyəndən sora ağzınızdan arzu olunmayan qoxu gəlisə, bir dilim xiyar götürüb dilinizlə damağınıza yerləşdirin və xiyar dilimini ən az 30 saniyə ağzınıda saxlayın. Ağızda qoxuya səbəb olan bakteriyaları xiyarın tərkibindəki maddələr aradan qaldıracaq.

Bunlardan başqa, xiyardan müalicəvi kosmetik vasitə kimi də istifadə olunur.

# Ay doğdu, qəlbiləndi...

maraqlı

***Bu il mayın 5-dən 6-na keçən gecə Yer kürəsində maraqlı bir mənzərə - tam dolğun Ay müşahidə olunmuşdur. Yerin təbii peyki həmin gecə Perigey nöqtəsində - Yer ilə Ay arasındakı ən qısa məsafədə qərar tutmuşdu. Bu il dolğun Ay xüsusilə gözəl görünürdü - onun gözlə görünüşü 14% böyümüş, aydınlığı isə 30% artmışdı.***

Qeyd edək ki, Yerə maksimum yaxınlaşdığı anda Ayın planetimizlə arasındakı məsafə təxminən 50 min kilometr olmuşdur. Həmin gecə Ay həddən artıq işıqlı olduğuna görə, astronomlar başqa bir maraqlı mənzərəni - akvarid meteorid yağışını müşahidə edə bilməmişlər. Akvarid meteorid yağışı hər il mayın əvvəlində - Yer kürəsi məşhur Qalley kometinin «quyruğundan» keçəndə baş verir.

Xalq arasında Ayın Yerə yaxınlaşması arzuolunmaz əlamət kimi qiymətləndirisə də, alimlərin izahına görə, bu hadisənin insan sağlamlığına hər hansı mənfi təsiri olmur, Ayın reallıqda olduğundan əhəmiyyətli dərəcədə böyük və işıqlı görünməsinin səbəbi isə psixoloji amillərlə izah olunur. Alimlər onu da təsdiqləyirlər ki, Ayın tam dolğun vəziyyətə gəlməsi daşqınları, eləcə də Yerin təkindəki seysmik fəallığı gücləndirir. Hətta belə bir fərziyyə də mövcuddur ki, yüz il bundan əvvəl «Titanik» gəmisinin batması, eləcə də keçən il Yaponiyada dağıdıcı zəlzələnin baş verməsi Ayın Yerə ən yaxın məsafəyə çatması ilə bağlı olmuşdur. Lakin bunlar, sadəcə, elmi cəhətdən təsdiq edilməmiş fərziyyələrdir.

**Müdriklər deyib ki...**

***«İnsanın əsl inancı ona rahatlıq gətirməyə deyil, insana zəhmət çəkmək üçün qüvvə verməyə xidmət edir».***

***Con Röskin (1819-1900)***



Səhifəni **Məti OSMANOĞLU** aparır | *m.bayramli@taxes.gov.az*